www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 noyabr 2015-ci il Cümə axşamı № 251 (6279) Qiyməti 40 qəpik

**Xəbər**

## Qətldə suçlanan şəxs məhkəmədə özünü yandırdı

yazısı səh.14-də

**Gündəm**

### ABŞ və Rusiya arasında əsəb savaşı başlayıb



Rusiyanın təyyarə qəzasına məsul olan iki MKİ əməkdaşını tutduğu deyilir; "Böyük iyirmilər"in sammitinə sayılı günlər qalmış Kreml Amerikanı və müttəfiqlərini nüvə zərbəsi ilə hədələdi...

yazısı səh.9-da

### Müxalifət yenə xaricdəki inqilablara ümidlənib...

yazısı səh.3-də

### Musavat.com saytının redaktoru Xalid Kazımlının 50 yaşı tamam oldu

yazısı səh.4-də

### Elşad Abdullayevlə Eynulla Fətullayev arasında yeni polemika

yazısı səh.7-də

### Əqidə yoldaşları Rauf Mirqədirovu niyə müdafiə etmir...

yazısı səh.3-də

### Manat kəskin devalvasiyaya getməsə də, ucuzlaşacaq

yazısı səh.8-də

### Siyasi liderlərin Elmlər Akademiyası ilə bağlı xatirələri

yazısı səh.11-də

### Hacıqabulda yük və minik maşınları toqquşdu: 1 ölü

yazısı səh.14-də

### YAP Güneydəki hadisələrə reaksiya verdi

yazısı səh.9-da

### "Yeni Yasamal" MTK-ya qarşı ilginc ittihamlar

yazısı səh.12-də

### G20-də iştirak Azərbaycana nə vəd edir...

yazısı səh.10-da

### Kremldən Ermənistana görünməmiş dəstək

yazısı səh.11-də

## Xəzərdə nazirimizə qarşı müdhiş əməliyyat

# "RUSİYA ZİYA MƏMMƏDOVUN 17 TON PULUNU TUTUB" - ŞOK İDDİA

Nəqliyyat nazirinin var-dövlətini daşıyan gəminin Rusiya Federal Təhlükəsizlik Xidmətinin xüsusi əməliyyatı nəticəsində saxlanıldığı deyilir; Moskva nəyin qisasını alır?




yazısı səh.8-də

## Eldar Mahmudov ev dustağıdır - sensasion səbəb...

Sabiq nazir işdən çıxarılan gün onun barəsində həbs sanksiyası imzalanıb, bundan sonra isə ev dustaqlığı barədə məhkəmə qərarı verilib; E.Mahmudovun bu cür təcridinə qərar verilməsinin daha bir səbəbi MTN-dəki "çete"nin illərdir əldə etdiyi qeyri-qanuni milyardların izini tapmaqdır

yazısı səh.4-də



### Pənah Hüseyn yeni yaradılacaq hərəkatın adını açıqladı

yazısı səh.6-da



### İsgəndər Həmidov Nazirlər Kabinetinə müraciət yazdı

yazısı səh.5-də



### İltizam Əkbərli Müsavatdan gedə bilər

yazısı səh.6-da




## Professor İlham Rəhimovun kitabı bolqar dilində çap olunub




**Azərbaycanın əməkdar hüquqşünası, professor İlham Rəhimovun "Cinayət və cəzanın fəlsəfəsi" adlı kitabı bolqar dilində çapdan çıxmışdır. Hüquq elmləri doktoru, professor İlham Rəhimovun Moskvada rus dilində çap edilmiş "Flosofiya prestupleniya i nakazaniya" ("Cinayət və cəzanın fəlsəfəsi") adlı kitabı beynəlxalq hüquq aləmində geniş maraq doğurduğundan, Bolqarıstanın Elmlər Akademiyasının və hüquqşünas alimlərinin təşəbbüsu ilə bolqar dilidə çap olunmuşdur.**

Nəfis üslubda nəşr olunmuş kitabda cinayət hüququnun təməl problemlərindən bəhs olunur. Müəllif cinayətin mənbəyinə və səbəblərinə, eləcə də cəzanın məzmununa fəlsəfi mövqedən yanaşıb. Kitab hüquq fakültələrinin müəllimləri, aspirantlar və tələbələr, eləcə də cinayət hüququ sahəsində ixtisaslaşmış hüquq-mühafizə orqanları işçiləri, nəzəriyyəçilər üçün nəzərdə tutulub. Nəşrdən həmçinin sosioloqlar, psixoloqlar və cinayətkarlıqla mübarizənin aparılmasına maraq göstərən hər kəs yararlana bilər.

Eyni zamanda qeyd etmək istəyirik ki, bu kitab rus dilində yazılmasına baxmayaraq Azərbaycan, türk, italiyan, yahudi, ingilis dillərinə tərcümə edilərək çap edilmişdir. Bundan başqa, kitab Çin Xalq Respublikasının hüquq alimləri tərəfindən bəyənilmiş və bu məqsədlə çin dilinə tərcümə edilməsi təşəbbüsü ilə çıxış etmişdilər.

## MTN-in sabiq şöbə rəisi barəsində həbs-qətimkan tədbiri seçilib

**MTN) Baş Əks Kəşfiyyat İdarəsinin sabiq şöbə rəisi, polkovnik Mirəziz Əsgərovun barəsində həbs-qətimkan tədbiri seçilib. APA-nın məlumatına görə, Baş Prokurorluğun təqdimatı əsasında Səbayel Rayon Məhkəməsinin qərarı ilə M. Əsgərov barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.**

M. Əsgərovun qərardan şikayətini Bakı Apelyasiya Məhkəməsi təmin etməyib.

M. Əsgərov Cinayət Məcəlləsinin 182.3.2-ci (külli miqdarda əmlak əldə etmək məqsədi ilə hədə-qorxu ilə tələb etmə), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), 309.2-ci (vəzifə səlahiyyətlərini aşma), 311.3.3-cü (külli miqdarda rüşvət alma) maddələrinə əsasən təqsirləndirilir.

## 23 yaşlı gənc əmisi oğlunun boğazını kəsib öldürdü

**Bakıda qətl törədilib. Nizami Rayon Polis İdarəsindən APA-ya verilən məlumatına görə, hadisə dünən saat 10.30 radələrində Qara Qarayev 55 ünvanında qeydə alınıb. 25-30 yaşlarında kişi küçədə naməlum şəxs tərəfindən bıçaqlanaraq qətlə yetirilib.**

Nizami Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, həyata keçirilən tədbirlər nəticəsində dünən səhər saatlarında Qara Qarayev 55 ünvanında bıçaqlanaraq və boğazı kəsilərək qətlə yetirilən şəxsin 23 yaşlı Elnur Balaşirin oğlu Nəsirov olması müəyyən edilib.

25-ci polis bölməsi əməkdaşlarının keçirdiyi təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində qətli törədən şəxsin E.Nəsirovun əmisi oğlu Elşən Nəzir oğlu Nəsirov olması müəyyən edilib və o tutulub.

İlkin məlumata görə, E.Nəsirov əmisi oğlunu qısqanclıq zəminində qətlə yetirib.

Faktla bağlı Nizami Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, istintaq gedir.


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil, **Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:


# Prezident HHQ-nin hərbi şəhərciyində oldu

**Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Hərbi-Hava Qüvvələrinin N saylı hərbi hissəsinin hərbi şəhərciyində yaradılan şəraitlə tanış olub.**

APA-nın məlumatına görə, müdafiə naziri Zakir Həsənov dövlət başçısına raport verib.

Prezident hərbi şəhərciyin baş planı ilə tanış olub. Məlumat verilib ki, ərazidə əsgər yeməkxanası, yataqxanası, anqarlar, təlim-məşq sinfi, tibb məntəqəsi inşa olunub. Hərbi hissənin ərazisində qarovul binası, komanda məntəqəsi, qazanxana, elektrik yarımstansiyası yaradılıb. Burada tikinti işlərinə 2014-cü ilin aprelində başlanılıb. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb, əsgər və zabitlərin istirahəti üçün guşələr yaradılıb.

Dövlət başçısı əsgər yeməkxanasında yaradılan şəraitlə tanış olub.

Sonra Ali Baş Komandan əsgər yataqxanasında olub. Dövlət başçısının diqqətinə çatdırılıb ki, bütün ərazi tam mühafizə olunur və nəzarətdədir. Quraşdırılan xüsusi kameralar kənar şəxslər əraziyə daxil olarkən həmin istiqamətə yönəlir və avtomatik siqnalizasiya işə düşür. Əsgər yataqxanasında ideoloji, məişət



xidməti və yataq otaqları ən müasir səviyyədə qurulub. Yataqxanada əşya anbarları, hamam və digər zəruri otaqlar var.

Prezidentə texnika parkı haqqında da məlumat verilib. Buradakı müasir texnikalar döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirməyə qadirdir. Parkda, həmçinin texnikaya texniki xidmət, təmir və yanacaqdoldurma məntəqələri fəaliyyət göstərir.

Sonra Ali Baş Komandan hərbi hissənin raket anbarına baxıb. Dövlət başçısı S-300 PMU-2 Favorit Zenit Raket Briqadasına baxış keçirib, şəxsi heyətin praktiki fəaliyyəti və döyüş növbətçiliyi ilə tanış olub.

İlham Əliyevə anbar, raketlər və raketlərin döyüş mövqeyinə daşınması üçün nəzərdə tutulan texnikalar barədə də məlumat verilib.

Dövlət başçısı bu il sentyabrın 15-də cəbhənin Ağdam istiqamətində Ermənistanın hərbçilərimiz tərəfindən məhv edilmiş X-55 pilotsuz uçan aparatının qalıqlarına baxıb.

Dövlət başçısı təlim-məşq kompleksi ilə tanış olub. Kompleksdə döyüş növbətçiliyinin aparılmasının təşkili, şəxsi heyətin döyüş texnikası ilə işləmə səriştələri yoxlanılır.

Sonra Ali Baş Komandan raketlərin start mövqeyinə gəlib, burada atıcı qurğulara baxıb.

## "Azadlıq-2015" siyasi partiyalar bloku buraxıldı

**Noyabrın 11-də "Azadlıq- 2015" siyasi partiyalar seçki bloku səlahiyyətli nümayəndələrinin və bloka daxil olan siyasi partiya sədrlərinin iclası keçirilib. Musavat.com xəbər verir ki, səlahiyyətli nümayəndələrin iclası qanunvericiliyə müvafiq olaraq "Azadlıq - 2015" siyasi partiyalar seçki blokunun fəaliyyətinə xitam verib. "Azadlıq - 2015" seçki blokuna daxil olan siyasi partiya sədrlərinin toplantısında siyasi partiyaların yetkili orqanlarında başqa qərar qəbul edilənə qədər KXCP, BAP, VİP, Azadlıq, Aydınlar, ALDP və AXP-nin eyni adlı siyasi partiyalar bloku şəklində əməkdaşlıqlarını davam etdirmək haqqında razılığa gəliblər.**

**❑ musavat.com**


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**


## Mərkəzi Bankdan dollar həyəcanına reaksiya

**ABŞ dollarının manata nəzərən məzənnəsində ciddi bir dəyişiklik baş vermir. Bu barədə «Trend»in son günlər dolların məzənnəsinin artması ilə əlaqədar sorğusuna cavab olaraq, Azərbaycan Mərkəzi Bankından (AMB) bildiriblər.**

Qeyd olunub ki, dəyişiklik daxili valyuta bazarında gedən proseslərlə əlaqədar deyil. Daxili valyuta bazarında vəziyyət tam nəzarət altındadır və tələb-təklif tarazlığı təmin olunur. Sadəcə, Mərkəzi Bank tərəfindən məzənnə siyasətinin ABŞ dolları və avronun daxil olduğu iki valyutalı səbət mexanizmi çərçivəsində həyata keçirilməsi ilə əlaqədar beynəlxalq valyuta bazarında avro/ABŞ dolları məzənnəsində baş verən gündəlik dəyişikliklər qismən milli valyutanın məzənnəsinə ötürülür.

Bankdan deyilib ki, son günlər ərzində dünya bazarında ABŞ dollarının avroya qarşı məzənnəsinin yüksəlməsi müşahidə edilir. Bu əsasən onunla izah edilir ki, Avropa Mərkəzi Bankı monetar genişlənmə proqramının həyata keçirilməsini davam etdirdiyi şəraitdə ABŞ-ın Federal Ehtiyat Sistemi tərəfindən əsas faiz dərəcəsinin yüksəldiləcəyi ehtimalı ilə bağlı məlumatlar yayılıb. Dünya bazarında müşahidə edilən bu proseslər fonunda manatın ABŞ dollarına qarşı məzənnəsində də yumşaq gündəlik dəyişmə baş verib.

AMB-dən bildiriblər ki, bir müddət əvvəl bu prosesin əksinə olaraq, dünya valyuta bazarlarında ABŞ dollarının məzənnəsinin avroya qarşı zəifləməsi nəticəsində ölkəmizdə də bu xarici valyutanın manata qarşı məzənnəsinin ucuzlaşma müşahidə olunmuşdu: "Belə ki, dolların manata qarşı rəsmi məzənnəsi bu il sentyabrın 15-də həttа 1,0469-dək ucuzlaşmışdı. Yəni normal bazar prosesi baş verir. O ki, qaldı valyutadəyişmə məntəqələrinə, Mərkəzi Bank tərəfindən valyuta qanunvericiliyinə, o cümlədən valyuta bazarında nağd alqı-satqı məzənnələrinin müəyyənləşdirilməsi üzrə mövcud tələblərə riayət olunması daim diqqət mərkəzində saxlanılır".


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;




## Ramil Usubov diplomatik korpuslarla bağlı qərar verdi

**Azərbaycandakı diplomatik nümayəndəlik və konsulluqların nəqliyyat vasitələrinə verilən dövlət qeydiyyat nişanları ilə bağlı yeni qaydalar müəyyənləşib. «Trend» xəbər verir ki, daxili işlər naziri Ramil Usubovun verdiyi qərara görə, qaydalara əsasən xarici ölkələrin Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik nümayəndəlik və konsulluqlarının, diplomatik nümayəndəlik statusuna (immunitetinə) malik beynəlxalq təşkilatların, habelə onların diplomatik personalının və bu personalın ailə üzvlərinin xidməti və şəxsi nəqliyyat vasitələrinə qeydiyyat şəhadətnaməsi və "D" seriyası üzrə dövlət qeydiyyat nişanı veriləcək.**

Həmçinin diplomatik nümayəndəlik və konsulluqların, diplomatik nümayəndəlik statusuna (immunitetinə) malik beynəlxalq təşkilatların inzibati-texniki və xidməti personalına və bu personalın ailə üzvlərinə "T" seriyası üzrə dövlət qeydiyyat nişanı və fəxri konsulluqların nəqliyyat vasitələrinə "FK" seriyası üzrə dövlət qeydiyyat nişanı veriləcək.

## Azərbaycanda Mamed və Məmməd adları qadağan olunur

**"Azərbaycanda Mamed və Məmməd adlarının vahid forması kimi Məhəmməd adı müəyyən olunub".**

Bunu APA-ya açıqlamasında Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini Sayalı Sadıqova deyib.

O bildirib ki, bununla bağlı bugünlərdə qərar qəbul olunub. Sədr müavini qeyd edib ki, qərarla bağlı "ASAN Xidmət" mərkəzlərinə məlumat verilib: "Təsəvvür edin ki, bir ailədə həm Mamed, həm Məmməd, həm də Məhəmməd adında uşaqlar var. Əslində Mamed və Məmməd adlarının kökü elə Məhəmməddir. "ASAN Xidmət" mərkəzlərindən də bizə tez-tez müraciət edirdilər ki, Mamed adının düzgün yazılış qaydasını bilmirik. Artıq bununla bağlı qərar qəbul olunub və vahid ad kimi Məhəmməd seçilib".

YENİ MÜSAVAT
N 251 (6279) 12 noyabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Müxalifət yenə xaricdəki inqilablara ümidlənib...

**Azərbaycanda bir sıra müxalif qüvvələr bütün seçkilərdən sonra sərgilədikləri ənənəvi taktikanı yenə təkrarlamağa başlayıblar. Daha bir parlament seçkisi əldən gedib, lakin onlar yenə hansı xarici ölkədə inqilabi dəyişikliyin baş verdiyini və dəyişiklik növbəsinin bizə də çatmaqda olduğunu cəmiyyətə təlqin edirlər. Məsələn, AXCP sədri Əli Kərimli bir neçə gün öncə Myanmarda demokratik qüvvələrin 25 ildən sonra qalib gəlməsindən yazıb.**

## Natiq Miri: "Əli Kərimli göstərsin görək Azərbaycanın Nobel laureatlı "Aung San Suu Kyin"i varmı?"



Bu dəfə demokratiya zəfərinin Çin sərhədindən - uzaq Şərqi Asiyadan gəldiyini qeyd edən Əli Kərimli bildirib ki, Myanmarda parlament seçkilərində hərbi xunta tərəfindən 15 il ev dustaqlığına məhkum edilmiş, Nobel mükafatı laureatı Aung San Suu Kyinin lideri olduğu Demokratiya Uğrunda Liqa 75 faizə qədər səs toplayaraq qalib gəldi.

Əli Kərimli Myanmarda baş verənlərdən bizim ölkə üçün də nəticələr çıxdığını bildirib.

**Politoloq Natiq Miri** isə özünü əsas müxalifət elan edənlərin illərdir sərgilədikləri taktikanın davam etdirilməsinin heyrət doğurduğunu bildirib. Onun sözlərinə görə, hər hansı xarici ölkədə rəngli inqilabların baş verməsi, yaxud uzun illərdən sonra hansısa ölkədə müxalifətin hakimiyyətə gəlməsi heç bir kənar ölkəyə birbaşa təsir eləmir. Dolayı yolla müəyyən təsiri ola bilər. O da müəyyən mənəvi-psixoloji vəziyyət yaratmaq səviyyəsində. Bu gün Myanmarda və ya hansısa başqa bir ölkədə inqilabi dəyişikliyin baş verməsi o demək deyil ki, təzliklə Azərbaycanda belə hadisə təkrarlanacaq: "İnsanları hansısa xarici ölkədə baş verən inqilablarla, siyasi dəyişikliklərlə ümiddə saxlamaq düzgün yanaşma deyil. İllərdir Azərbaycandakı bir sıra müxalifət qüvvələri məhz bu cür yanlış taktikanı yürüdür və nəticə göz önündədir. Göz önündə acı nəticə olduğuna rəğmən həmin qüvvələrin yenə də eyni taktikanı sərgiləmələri əslində həmin siyasi qüvvənin tükənməsinin göstəricisidir. Belə çıxır ki, bu siyasi qüvvələrin cəmiyyətə təqdim edə biləcəyi başqa bir amil yoxdur. Özləri heç bir real fəaliyyətlə, cəmiyyətin içinə gedib iş aparmaqla məşğul deyillər və gözlərini hansısa xarici ölkədə inqilabi prosesin baş verməsinə dikiblər ki, bir müddət də xalqa "filan ölkədə də inqilab oldu, növbə bizimdir" ümidini versinlər. İşlərini bununla bitmiş hesab etdiklərindəndir ki, belə qüvvələr illərdir ölkədə zərrə qədər müsbət dəyişikliyə nail ola bilməyiblər, əksinə, uçuruma yuvarlanıblar. Özləri ilə birlikdə illərdir ümid verməklə başını aldatdıqları cəmiyyəti uçuruma sürükləyiblər".

**Ekspert qeyd etdi ki, özünü ölkədə yeganə müxalifət elan edən Milli Şura və AXCP seçkidə iştirak etməyib passiv boykot taktikası ilə prosesi müşahidə edirsə, bu qüvvənin artıq ictimaiyyətə deməyə sözü olmamalıdır. İndi də cəmiyyəti Myanmarı nümunə göstərib arxayın salmağa başlayıblar. Belə siyasi qüvvələr bilməlidirlər ki, artıq illərdir yürütdükləri taktika ilə insanları aldatmaq mümkün deyil:** "Artıq həmin qüvvələrin "filan ölkədə inqilab oldu, filan ölkədə 25 ildən sonra müxalifət hakimiyyətə gəldi, növbə bizə çatacaq" kimi bəyanatları cəmiyyətdə gülüş doğurur. Belə şeylərlə insanları təəccübləndirmək dövrü arxada qalıb. Diqqət edirsinizsə, Azərbaycanda hansısa müxalifət qüvvələrinin seçkilərdə iştirak edib-etməməsindən asılı olmayaraq seçicilərin 15 faizindən çoxu seçkidə iştirak eləmir. Bu, cəmiyyətin həm həmin müxalifət qüvvələrinə, həm də ölkədəki siyasi sistemə inamsızlığının təzahürüdür. Artıq həmin qüvvələrin keçmişdə dəfələrlə təkrarladıqları bəyanatlara bənzər bəyanatlar, müraciətlər cəmiyyətdə siyasi hadisə yaratmır. Proseslərin arxasınca sürünən siyasi qüvvələrin ölkədə cəmiyyəti tərpədə bilməsi, öz arxasınca aparmağa nail olması mümkün deyil. İllərdir ki, Azərbaycanda müxalifət liderləri proseslərin arxasınca sürünürlər. Azərbaycanda proses yarada biləcək siyasi güc mərkəzləri yoxdur. Bir çox problemlər bundan qaynaqlanır. AXCP sədri Əli Kərimli Myanmarı nümunə olaraq yazır və qeyd edir ki, Myanmarda parlament seçkilərində hərbi xunta tərəfindən 15 il ev dustaqlığına məhkum edilmiş, Nobel mükafatı laureatı Aung San Suu Kyinin lideri olduğu Demokratiya Uğrunda Liqa 75 faizə qədər səs toplayaraq qalib gəlib. Əli Kərimli göstərsin görək Azərbaycanın Nobel laureatlı "Aung San Suu Kyin"i varmı? Əlbəttə yoxdur".

**N.Miri onu da dedi ki, Azərbaycanda illərdir dəyişiklik iddiasında olan güc mərkəzlərindən biri parlament seçkisində ümumiyyətlə iştirak etmir, biri isə seçkiyə iki gün qalmış prosesdən çəkilir. Hər ikisi də düşünür ki, bu addımları ilə seçkinin nəticələrinə, prosesə təsir edəcəklər:** "Lakin düşünmürlər ki, cəmiyyətdə onların hər ikisinin addımı zəiflik əlaməti kimi qəbul edilir. Hər iki güc mərkəzinin addımında yenə də xarici faktora ümid etmək xeyli dərəcədə rol oynayırdı. Onlar yenə də həmişə olduğu kimi, xaricə ümid edirdilər, düşünürdülər ki, seçkidən çəkilmələri beynəlxalq birliyin seçkiyə münasibətinə ciddi təsir göstərəcək. Özündə daxildə güc tapmayan qüvvələr xarici faktorla Azərbaycan hakimiyyətinə təsir edə biləcəklərini düşünürlər. İllərdir uduza-uduza getmələrinin səbəblərindən biri bu amillərdir".

❑ Etibar SEYİDAĞA

# Əqidə yoldaşları Rauf Mirqədirovu niyə müdafiə etmir?



**Əli Əliyev:** "2005-ci ildən onunla siyasi münasibətlərimiz kəsilsə də, həbsini pisləyən bəyanat yaymışıq"



**Etibar Məmmədov:** "Qaşınmayan yerdən niyə qan çıxarırsan axı?"



**Əli Orucov:** "Onun məhkəməsində iştirak mənə həvalə olunmuşdu, amma..."

**Hazırda həbsdə olan jurnalist Rauf Mirqədirovla bağlı müdafiə bəyanatlarının, tədbirlərin az keçirilməsi diqqət çəkir. Xüsusən də R.Mirqədirovun üzvü olduğu AMİP tərəfindən xüsusi dəstək bəyanatları, eləcə də partiya funksionerləri tərəfindən hər hansı açıqlamanın olmaması mətbuatda və sosial şəbəkələrdə zaman-zaman müzakirə olunur. "Yeni Müsavat" R.Mirqədirovun partiyadaşlarından və eks partiyadaşlarından bu barədə soruşdu. Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev bildirdi ki, qoyulan məsələ haqlıdır.**

**Müsahibimiz bildirdi ki, R.Mirqədirov həbs olunan zaman AMİP Siyasi Şurasının üzvü olub və üzvü kimi həbs olunub:** "Rauf bəy həbs olunan zaman həmin partiyanın Siyasi Şurasının üzvü olub, üzvü kimi həbs olunub. Bir insani əqidə yoldaşlığı deyilən anlayışlar var. Ən azı insani nöqteyi-nəzərdən müdafiə etmək lazım idi. Baxmayaraq ki, həmin partiyada baş verən proseslər zamanı Rauf bəy rəsmən AMİP adını alan tərəfi müdafiə etmişdi. Partiyanın bölünməsindən sonra da kifayət qədər yüksək post olan Siyasi Şurada təmsil olunurdu. Biz onun həbsi zamanı Vətəndaş və İnkişaf Partiyası olaraq keçmiş münasibətləri və onun keçmiş jurnalist olmasını, milli azadlıq hərəkatında xidmətlərini nəzərə alaraq onun dəstək bəyanatını dərhal qəbul etmiş, onun həbsini qanunsuz saymışdıq. Buna baxmayaraq, Siyasi Şura üzvü olduğu partiyadan da o vaxt heç bir dəstək gəlmədi. Bu gün də ona qarşı laqeydlik göstərilməsinə şərh verməkdə çətinlik çəkirəm. Nə siyasi münasibətlər, nə də insani baxımdan bu cür etinasızlıq, sadəcə olaraq, sualdan başqa heç nə yaratmır".

**Müsahibimiz dedi ki, 2005-ci ildə partiya bölünərkən R.Mirqədirov haqsız olaraq onların mövqeyini yanlış sayıb və qarşı tərəfə dəstək verib:** "O zamandan bizim siyasi münasibətlərimiz kəsilmişdi. Amma biz verdiyimiz bəyanat, dəstəklə keçmiş partiyadaşımıza dəstəyimizi bildirmişdik. Bu isə mövcud olan münasibətlərdən daha üstün dəstək forması idi. İnsani nöqeti-nəzərdən yanaşmamız vardı. Hesab edirik ki, siyasi məhbus statusunda olan hər kəsə dəstək göstərmək lazımdır. Bundan sonra da Rauf bəyə lazım olan siyasi dəstəyi göstərməyə hazırıq. Onun məhbəs həyatı yaşamasında göstərilən məqamlar xeyli şübhəli və qeyri-müəyyəndir".

**AMİP lideri Etibar Məmmədovun isə bu məsələ ilə bağlı mövqeyi kəskin və aqressiv oldu. Müsahibimiz dedi ki, hər şey barədə məlumatlı olsa da, bu haqda danışmaq istəmir:** "Kimin nə deməsi də məni maraqlandırmır. Sizə də bu barədə heç nə demirəm. Çünki bu, mətbuatlıq məsələlər deyil. Bundan sonra soruşmayın. Qaşınmayan yerdən niyə qan çıxarırsan axı sən? Vermə bu sualı. Yenə gedib mətbuatda ağzınıza gələni yazacaqsınız. Mən sizə hesabat verməli deyiləm ki, axtarıram, ya yox".

**AMİP Mərkəzi Şurasının üzvü Əli Orucov isə bildirdi ki, partiya R.Mirqədirovun müdafiəsi ilə bağlı lazımi tədbirlər görüb. Bu tədbirlər sırasında onun haqqının pozulması ilə bağlı hazırlanan bəyanatları, yaranmış vəziyyətlə bağlı ortaya qoyulan mövqeni sadalayan Ə.Orucovun sözlərinə görə, bu gün də imkan daxilində R.Mirqədirovun yanındadılar:** "Yenə də onun mənəvi dəstəkçisiyik. Məhkəməsində iştirak məsələsinə gəlincə, məhkəmənin hazırlıq iclasında iştirak etmək mənə həvalə olunmuşdu. Amma o vaxt mənim xəstəmlə bağlı işlərim olduğu üçün prosesdə iştirak etməmişəm. Amma bu o demək deyil ki, onun müdafiəçisi olmamışıq. Ən böyük arzumuz odur ki, o, azadlığa qovuşsun və müdafiəyə də ehtiyacı olmasın".

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 251 (6279) 12 noyabr 2015





# "Üzeyir Hacıbəyovu qınayır, Məşədi İbada haqq veririk - Xalid hoca min cavana dəyər..."

## Musavat.com saytının redaktoru, tanınmış köşə yazarı Xalid Kazımlının 50 yaşı tamam oldu

**"50-ni aşırdın, yüzə nə qaldı..." deyib başlamaq da olar sözə. Ya da ən klassik azərbaycanlı zarafatı ilə "Məşədi İbad yaşına gəldinsə, sənə zaval yoxdur" deməklə də. 50 yaşın elə bir energetikası var ki, ünvanına bütün xoş sözləri maqnit kimi çəkir zatən. Bu gün də (dünən) "Yeni Müsavat" qəzetinin tanınmış köşə yazarı, musavat.com saytının redaktoru Xalid Kazımlı 50 yaşına qədəm qoyanda sosial şəbəkədəki dost-tanış təbriki elə bu ruhda idi. Təbrik edənlər, beşinci onluğun yükünə baxmayaraq, cavan göründüyünü iddia edənlər, uğurların xatırladılması və s. və i.**

Yubilyar "bizim" olduğu üçün ilkin, kiçik qutlamanı da elə redaksiyada etdik. Tort, çay, çiçək.. Klassik. Öncə sözü qəzetimizin baş redaktoru Rauf Arifoğlu alaraq dedi ki, əslində X.Kazımlını Azərbaycan mətbuatında, özündən də əvvəl, nömrə 1 hesab edir. Yubilyarı siyasi jurnalistikanın ağır toplarından biri kimi təqdim edən baş yazar onunla tanışlıq və iş tarixçəsini də yada saldı. Məlum oldu ki, bundan 30 il əvvəl Gəncədə, tələbə ikən tanış olublar. Maksim Qorki 44 ünvanlı evdə. Xalid Kazımlının 20, Rauf Arifoğlunun 19 yaşları varmış. Hər ikisi yazırmış o vaxt. Şeir, yazı, siyasi analizlər.

Baş yazarın sözlərinə görə, az sonra "Yeni Müsavat" adlı yeni yaranan qəzeti Gəncə potensialı hesabına irəli aparıblarmış. Qabil Abbasoğlu, Mahir Məmmədli, Şirzad Məmmədli, Sədrəddin Soltan, X.Kazımlı... və daha bir neçə imza sahibi ilə birgə.

**Redaksiyanın gənclərinə və özünü gənc hiss edənlərinə bu tarixçəni xatırladandan sonra isə yenidən Məşədi İbad bənzətmələri "havada uçuşdu":** "İndi biz 50 yaşa istehza edə bilərik. Çünki Xalid hoca da, elə biz də xeyli gənc qalmışıq. Üstəgəl, Üzeyir Hacıbəyovu da qınayır və Məşədi İbadı da haqlı sayırıq. Çünki 50 yaşlı insan həqiqətən də min cavana dəyir. Gələn il mənim də 50 yaşım olacaq, ona görə bu qədər ürəkdən deyirəm". (gülür)

**X.Kazımlı isə "Yeni Müsavat"la 20, R.Arifoğlu ilə 30 illik yol yoldaşlığının çox xoş olduğunu dedi:** "Adam heç bacı-qardaşı ilə bu qədər müddət, fasiləsiz bir arada olmur", deyən yubilyar bildirdi ki, əslində bu, iş yoldaşlığından daha çox müharibə yoldaşlığına bənzəyir. Birgə yol getmək, mübarizə aparmaq, maneələri dəf etmək...

Xalid bəyi qutlayanlardan biri də siyasətçi Pənah Hüseyn oldu. Pənah bəy dedi ki, Azərbaycanın xilas yolu əslində bu cür savadlı, mədəni, intellektual insanlarla olacaq. P.Hüseynin fikrincə, o insanlardan biri də X.Kazımlıdır.

"Xalid Kazımlı insanlara qiymət verənlərdəndir", bunu da az danışmağı sevən, qəzetimizin kriminal yazarı Elşən Balaxanılı dedi.

**Baş redaktorun müavini Azər Ayxan isə bu 20 ildə dəfələrlə sınaqdan çıxdıqlarını bildirdi:** "Xalidlə ayrı-ayrı kollektivlərdə çalışanda da həmişə bir yerdə idik. Bizi bir arada tutan dəyərlər olub hər zaman".

P.Hüseynin "Əslində həyat budur da, Xalid bəy... Elə indi, bu otaqda yaşananlar bir ömrə bərabər andır", yanaşması, R.Arifoğlunun "20 yaşında düşünürdüm ki, 50 il yaşasam bəsimdir. İndi isə deyirəm ki, 100 yaş nədir ki?" sözləri 50 yaşın xofunu tamamən yox etdi. Tort kəsildi, təbriklər səsləndi və "inşallah, gələn ad gününü Füzulidə, doğma Seyidəhmədli kəndində qeyd edərik" kimi pafoslu təbrikin əvəzinə... həftə sonu geniş bir ad günü məclisi keçirmək qərarlaşdırıldı. Daha real və gözəl bir plan.

**Təbriklər, Xalid bəy, 100 yaşayın... Ən azı 100 təbii ki...**

**❑ Sevinc TELMANQIZI**
**Fotolar Məhəmməd Türkmənindir**





# MTN-in ən sirli generalı haqda həbs sanksiyası hazırlanır

# Eldar Mahmudov ev dustağıdır - sensasion səbəb...

## Sabiq nazir işdən çıxarılan gün onun barəsində həbs sanksiyası imzalanıb, bundan sonra isə ev dustaqlığı barədə məhkəmə qərarı verilib; E.Mahmudovun bu cür təcridinə qərar verilməsinin daha bir səbəbi MTN-dəki "çete"nin illərdir əldə etdiyi qeyri-qanuni milyardların izini tapmaqdır

**Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov ev dustağıdır. Bu sensasion məlumatı redaksiyamıza verən mənbənin sözlərinə görə, bununla bağlı qərar oktyabrın 17-də verilib. Qeyd edək ki, Cinayət Məcəlləsinin 154.2.1-154.2.9-cu maddələrində nəzərdə tutulmuş qətimkan tədbirləri sırasında ev dustaqlığı da var. Qaynağımızın iddiasını rəsmi mənbələrdən dəqiqləşdirmək mümkün olmasa da, ortaya daha maraqlı məqam çıxıb.**

Çünki ev dustaqlığı həbsə alternativ qətimkan tədbiri olduğundan şəxsin həbsə alınması barədə məhkəmənin qərarı alındıqdan sonra onun əvəzinə seçilə bilər. Yəni bu o deməkdir ki, oktyabrın 17-də işdən çıxarılan E.Mahmudov barədə həbs sanksiyası verilib, amma bu, ev dustaqlığı ilə əvəz olunub. Mənbəmiz onu da dəqiqləşdirib ki, sabiq nazirin nəzarət altında saxlanılması barədə mediadakı xəbərlər hüquqi baxımdan mümkün deyil. "Çünki Cinayət Məcəlləsində Prosessual Məcburiyyət Tədbirləri haqda fəsildə aydın yazılır ki, nəzarət altında saxlama yalnız yetkinlik yaşına çatmayan şəxsin barəsində seçilə bilər. Komandanlığın müşahidəsi altına vermə isə yalnız hərbi qulluqçu və ya hərbi toplantıda təlim keçdiyi müddətdə hərbi mükəlləfiyyətli şəxs barəsində seçilir" deyə, bildirib.

E.Mahmudovun işdən çıxarılmasından dəqiqələr sonra aralarında generallar da olan ən yaxın adamlarının qandallanması sabiq nazirin də təqsirləndirilən şəxs qismində barəsində qətimkan tədbirinin seçiləcəyi əslində sensasiya deyil, bəlkə də zərurət idi. MTN-də baş verən tükürpədici faktlar açıqlandıqdan sonra ortaya "bəs Eldar Mahmudov?" sualı çıxıb. Onun ən inanılmış adamlarının həbsə alınması, bəzilərinin təhlükəsizlik orqanlarından qovulması, qohumlarının bütün dövlət işlərindən uzaqlaşdırılması sabiq nazirin rahat təqaüd həyatının olmayacağı deməkdir. Bütöv bir nazirlikdə yuxarıdan aşağı kadr təmizlənməsi, baş vermiş cinayətlərin hamısında birbaşa nazirin adının keçməsi E.Mahmudov barədə həbs sanksiya üçün əsasdır.

E.Mahmudov barəsində elə həmin gün həbs qərarının verilməməsi onun ciddi nəzarət altında saxlanıldığı versiyasını gücləndirib. Mənbəmiz isə iddia edir ki, sabiq nazir işdən çıxarılan gün onun barəsində həbs sanksiyası imzalanıb, bundan sonra isə onun ev dustaqlığı barədə məhkəmə qərarı verilib. Sabiq nazirə əmri ilə bərabər, həm də həmin sənədlər təqdim edilib. "Böyük ehtimalla nazir barədə sanksiyanı baş prokurorun müavini Rüstəm Usubov imzalayıb, Səbayel Rayon Məhkəməsi isə ev dustaqlığı barədə qərar verib" deyə, mənbəmiz sonda bildirib.

Yada salaq ki, hələ ötən həftə "Yeni Müsavat" sabiq nazirə niyə həbs qərarı verilmədiyinə dair xəbərlərə toxunmuşdu. Bildirilirdi ki, hakimiyyət daxilində gərginliyi artmaması üçün E. Mahmudovun həbsinə birbaşa qərar verilməyib. İddia var ki, E.Mahmudovla konflikti olanlar onun dərhal "zərərsizləşdirilməsinə" tərəfdar olublar. Amma son nəticədə məhz E.Mahmudovun bu cür təcridinə qərar verilib. E.Mahmudovun bu cür təcridinə qərar verilməsinin daha bir səbəbi MTN-dəki "çete"nin illərdir əldə etdiyi qeyri-qanuni vəsaitlərlə bağlıdır. Məlumata görə, bu vəsaitin böyük bir hissəsi ən müxtəlif yollarla ölkədən çıxarılıb. Bu vəsaitin hətta bir neçə milyard ola biləcəyi ilə bağlı da iddialar var. İndi böyük bir qrup bu vəsaitin izini araşdırır və həmin pulların ölkəyə qaytarılmasını təmin etməyə çalışır.



Eldar Mahmudov

Aydındır ki, E.Mahmudov birbaşa həbsə salınsaydı, hakimiyyət üzərinə müəyyən qınaqlar ola bilərdi. E.Mahmudovun "xidmətləri" və "hakimiyyətə sədaqəti" müzakirə mövzusu olacaqdı. Amma indi MTN-lə bağlı üzə çıxan şok faktlar E.Mahmudovun yaxın çevrəsini və ona bağlı kiçik də olsa müqavimət qruplarını tam arqumentsiz qoyub. MTN-də zillət görmüş sahibkarlar E.Mahmudovun həbsə alınmasını tələb edirlər, mümkün müqavimət mərkəzləri susdurulub, sabiq nazirin sirlərini bilənlər isə həbsə alınıb, güman ki, artıq ifadə də verirlər...

Yeri gəlmişkən, noyabrın 10-da təhlükəsizlik orqanlarından xaric edilmiş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarovun və MTN-in Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanovun əməllərinə hüquqi qiymət verilməsi üçün toplanmış materiallar Baş Prokurorluğa təqdim edilib. Toplanmış materialların hüquqi qiymət verilməsi üçün Baş Prokurorluğa təqdim olunması E.Mahmudovun daha iki generalının həbsini qaçılmaz edir. MTN-dəki cinayətkar şəbəkənin əsas fiqurantlarından biri olan Akif Çovdarov Eldar Mahmudovun "sağ əli" və kassiri hesab olunur və buna dair istənilən qədər fakt var. Prokurorluğun onlar barəsində həbs, yoxsa ev dustaqlığı qərarı verəcəyi yaxın 24 saatda bilinməlidir. Böyük ehtimalla adı bir çox cinayətlərdə hallanan generallar barədə həbs-qətimkan tədbiri seçiləcək.

Bildirək ki, oktyabrın 17-dən keçən müddətdə sabiq nazirin görünməsi barədə yalnız bir xəbər keçib. Qeyr-rəsmi xəbərdə bildirilirdi ki, Eldar Mahmudov oktyabrın 25-də qudası, Beynəlxalq Bankın keçmiş prezidenti Cahangir Hacıyevin anasının dəfnində və yasında iştirak edib. Amma bunu təsdiq edən heç bir görüntü ortaya çıxmadığından bu xəbərin nə qədər səhih olduğu bilinmədi. "Yeni Müsavat" öz mənbələrindən yalnız onu dəqiqləşdirib ki, E.Mahmudov Badamdardakı villasında deyil, başqa mənzildə ev dustağı edilib.

**❑ "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 251 (6279) 12 noyabr 2015

# Eldar Mahmudov antikorrupsiya qanununu da pozubmuş...

## Müzəffər Baxış: "Onun tabeliyində heç bir yaxın qohumu işləyə bilməzdi"

**Eldar Mahmudov nazir vəzifəsindən çıxarıldı və aydın oldu ki, Milli Təhlükəsizlik Nazirliyində onun 80 qohumu işləyib. Nazir həmin qohumları vasitəsilə hansı işləri görüb, bunu istintaq araşdırmalıdır. Bəs qohumların bir-birinin tabeliyində çalışması qanunidirmi? Belə bir tabeçilik münasibətləri korrupsiya cinayətlərinə yol açmırmı?**



**"Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri Müzəffər Baxış** deyir ki, sovetlər dönəmində belə məsələlər Əmək Məcəlləsi ilə tənzimlənib: "O dövrdə bu haqda Nazirlər Kabinetinin qərarı vardı. Orada hansı qohumların bir-birinin tabeliyində işləməsinə yol verilmədiyi konkret göstərilirdi. Azərbaycanda yeni Əmək Məcəlləsi qüvvəyə minəndən sonra belə bir qayda nəzərdə tutulmadı. 23 dekabr 2003-cü ildə Azərbaycan Respublikasının "Korrupsiyaya Qarşı Mübarizə haqqında" Qanun qüvvəyə mindi. Həmin qanunun 7.1-ci maddəsində müvafiq icra hakimiyyəti orqanlarında müəyyən edilmiş istisnalar olmaqla, qohumların bir-birinin tabeliyində işləməsinin yolverilməz olduğu qeyd olundu. Göstərildi ki, istisna halı Nazirlər Kabineti müəyyən etməlidir. Amma bu günə qədər belə bir istisna nəzərdə tutulmayıb. Həmin qanunun 7.2-ci maddəsində göstərilir ki, əgər qohumların bir-birinin tabeliyində işlədiyi müəyyən edilərsə, 1 ay müddətində həmin şəxslər işdən çıxarılmalıdır. Yəni həmin qanunun tələbinə görə Eldar Mahmudovun tabeliyində heç bir yaxın qohumu işləyə bilməzdi. Eldar Mahmudov milli təhlükəsizlik naziridirsə, deməli, o qurumda işləyən bütün şəxslər onun işçiləridirlər və onların arasında nazirin qohumu olmamalı idi. Çox əfsuslar olsun ki, Azərbaycan hüquq dövləti deyil. Buna görə də belə bir problemlər ortaya çıxanda həlli də qeyri-mümkün olur".

**M.Baxış deyib ki, 2003-cü ildə qanuni qüvvəyə minmiş "Korrupsiyaya Qarşı Mübarizə haqqında" Qanun bu gün də qüvvədədir və qanunun icrasına nəzarət etməli qurum Baş Prokurorluqdur:** "Prokurorluq qanunun icrasına nəzarət etməli olan, məsuliyyət daşıyan orqandır. Eldar Mahmudovun barəsində şikayətlər bu qurumda araşdırılmayıb. Eldar Mahmudovdan sadəcə qorxublar, çəkiniblər. Onun xüsusilə ağır cinayətləri - quldurluq, hədə-qorxu ilə tələb etmə, soyğunçuluq haqda Baş Prokurorluğa daxil olan şikayətlər araşdırılmayıb".

**M.Baxış deyir ki, MTN-də aparılan yoxlamaların obyektivliyini təmin etmək üçün müvafiq əlaqəli qurumlarda da araşdırmalar aparılmalıdır:** "Bunu tam məsuliyyətlə deyirəm. Bu baş verməyəcəksə, son nəticədə Azərbaycan dövlətçiliyinə böyük zərbə vurulacaq".

❑ E.MƏMMƏDƏLİYEV

# İsgəndər Həmidov Nazirlər Kabinetinə müraciət yazdı

## Sabiq nazir məcburi köçkünlərin məsələsini qaldırdı

**Noyabrın 1-də Milli Məclisə keçirilən seçkilərdə 123 saylı Kəlbəcər seçki dairəsindən deputatlığa namizəd olmuş sabiq daxili işlər naziri İsgəndər Həmidov Nazirlər Kabinetinə, Qaçqın və Məcburi Köçkünlərin işi üzrə Dövlət Komitəsinin sədri Əli Həsənova və Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Aqil Məmmədova rəsmi məktubla müraciət edib.**



İ.Həmidov hökumətə müraciətində məcburi köçkün həyatı yaşayan kəlbəcərlilərin üzləşdikləri bəzi sosial problemlərdən bəhs edib. O qeyd edib ki, parlament seçkilərinin təbliğat və təşviqat mərhələsi zamanı seçicilərlə keçirdiyi görüşlərdə kəlbəcərli məcburi köçkünlər bəzi sosial çətinliklərdən şikayətləniblər.

Sabiq daxili işlər naziri aidiyyəti dövlət orqanlarına müraciətində məcburi köçkün həyatı yaşayan insanların üzləşdiyi problemləri həll etməyə çağırıb. O, kəlbəcərli məcburi köçkünlərin üzləşdiyi sosial problemləri mahiyyətinə və yerləşmə ünvanına görə 4 qrup üzrə təsnifatlaşdırıb:

1) Bərdə rayonunda "Dördyol" deyilən ərazidə salınmış 149 evdən ibarət qəsəbədə azı 45 evin divarlarında yaranmış iri çatlar ucbatından qəzalı vəziyyətə düşmüş evlərin sakinləri xeyli müddətdir ki, hər an vahimə, təlaş və gərginlik şəraitində olduqlarını, üz tutduqları müxtəlif aidiyyəti orqanlardan isə faktiki olaraq heç bir köməkdarlıq olunmadığını bildirdilər.

**2)** Yenə Bərdə rayonunda məskunlaşmış bir qrup Kəlbəcər qaçqınları yaşadıqları ərazidəki torpaq sahəsini əllərindən almaq məqsədilə hansısa yuxarı instansiya tərəfindən göstəriş verildiyini və bu məqsədlə əraziyə gələn suyun, qazın, işığın qəsdən kəsilməsi, digər formalarda təsir olunduğundan böyük narazılıqla danışdılar.

**3)** Şamaxı rayonunun Çuxuryurd qəsəbəsində köhnə binada məskunlaşmış 12 ailə də bərbad vəziyyətdə yaşamaqdadır. Yağışlı havalarda isə bacadan daman yağış sularının yaratdığı acınacaqlı mənzərəyə ürəkağrısı ilə baxmamaq mümkün deyil.

**4)** Gəncə şəhərində Alüminium Zavodu yaxınlığında salınmış yeni qəsəbədə isə sakinlər iqtisadi çətinliklər bir yana, bir yandan da əraziyə yaxın yerdə zibil tullantıları üçün ayrılmış sahədə vaxtaşırı yandırılan hər növ tullantılardan ibarət zibil topalarının atmosferə yaydığı yoluxucu xəstəliklər mənbəyindən, üfunət və qoxulardan təngə gəldiklərini bildirirdilər".

İsgəndər Həmidov onu da bildirib ki, bu problemlərin həlli istiqamətində heç bir tədbirlər görülməyəcəyi təqdirdə sakinlər müxtəlif formalarda etiraz aksiyaları keçirməyi planlaşdırırlar. Sabiq nazir müraciətində prezidentin "Qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması" ilə bağlı imzaladığı qərarlara uyğun şəkildə əməli iş görülməsini xahiş edib.

❑ E.SEYİDAĞA





# Yenə də hansısa mərhələ qalıbmı?

**Hüseynbala SƏLİMOV**

**Ölkə qəribəliklərlə doludur. Amma bilirsiniz ən qəribəsi nədir? Adam müxalifət partiyalarının fəaliyyətinin konkret dövr üçün yekunundan danışa bilmir... O gün Türkiyə kanallarına baxırdım. İnsanlar müxalifət partiyası CHP-nin növbəti qurultayını keçirmək üçün imza toplayırdılar...**

Hiss olunurdu ki, onlar seçkinin nəticələrindən narazıdırlar, çünki artıq neçənci dəfədir ki, partiya parlament seçkilərində nəticələrini nəinki yaxşılaşdıra bilmir, əksinə, getdikcə mövqelərini itirir. Düzdür, o, yenə də əsas müxalifət kimi qalır, gəl, nəticə insanları qane etmir...

Bizim problemimiz isə ondan ibarətdir ki, biz müxalifət partiyalarının liderlərinə öz iradlarımızı da bildirməyə fürsət və ən başlıcası isə zəmin tapa bilmirik. Ona görə ki, hamı özünü qalib hiss edir. Hamı deyir ki, əsl seçki olsaydı biz qalib olacaqdıq. Hamı deyir ki, təqsir partiyalarda, onların rəhbərlərində deyil, ölkənin mövcud siyasi reallıqlarındadır...

Nə demək olar?.. Lap "Dədə Qorqud" filmində deyildiyi kimi: Tural düzmü deyir, bəylər?..

Bəlkə də düzdür, amma bizim də öz suallarımız var. Bəs əsl seçkini bu ölkəyə kim gətirməlidir? Bu ölkənin siyasi reallıqlarını kim dəyişməlidir?..

Deyəcəklər ki, bacarmırıq, gücümüz çatmır, cəmiyyət zəifdir. Buna da iradımız yox. Sadəcə, burada bir detala toxunmaq istəyirəm. Bəs onda siyasi partiyalarda rəhbərlik üstündə niyə bu qədər qovğa gedir? Nədən heç kim demir ki, bəs gücüm bura qədər çatdı, bundan sonra isə kim istəyir, buyursun, partiyanı irəli aparsın!..

Yox, belə demirlər. Bir tərəfdən daha heç bir şansın qalmadığını deyir, o biri tərəfdən də partiyanın sükanından dörd əllə yapışırlar!

Bu nədir? Sadəcə, təqaüd yaşına qədər bir təhər öz başını qatmaqmı? Bəlkə bu adamların elə doğrudan da getməyə yeri yoxdur, elə ona görə də partiyadan belə dörd əllə yapışıblar?

Məsələ bundadır ki, biz onları başa düşməyə çalışırıq, amma onlar bizi başa düşmək istəmirlər, hətta buna cəhd də etmirlər...

Mənə qalsa, bu müxalifətin bütün şansları tükənib. Ən dəhşətlisi isə odur ki, bu vəziyyətə adekvat təhlil yoxdur. Bəli, bu hansı mərhələdir? Bu mərhələdə biz nə edə bilərik və yaxud nə etməliyik?

Bu haqda zərrə qədər də düşünən yoxdur. Fikirləşmirəm ki, insanların, daha doğrusu, müxalifət funksionerlərinin hamısı etinasız və biganədir. Yox, belə deyil. Amma özünə əziyyət vermək istəyən yoxdur...

Əziyyət deyəndə ki, elə bir böyük bir şey də tələb olunmur. Sadəcə, müxalifətin düşdüyü indiki bu vəziyyəti təhlil edən, ondan qurtuluş yollarını göstərən, yeni hədəfləri işarə edən bir proqrama ehtiyac var. Bunun da adını "Yol xəritəsi" qoymaq olardı... Amma əsas bu deyil. Odur ki, böhrandan çıxış yolu aransın... Əks təqdirdə heç nə dəyişməyəcək. Bizə qalsa, müxalifətin sükanını gənclərə tapşırmağın vaxtıdır. Yox, bu, qorxmaq, aradan çıxmaq və ya başqa bir məsələ deyil...

Kimsə hətta deyə bilər ki, gənclər buna hazırdırmı? Onlar müxalifət olmağın ciddiliyini və məsuliyyətini dərk edirlərmi? Heç nə deməyəcəm. Bircə onu deyəcəm ki, indi klassik müxalifət partiyalarına rəhbərlik edənlər də siyasətə gələndə tamam gənc idilər, üstəlik, o vaxt müxalifətçilik, siyasi fəaliyyət təcrübəsi də yox idi. Amma onlara inandılar, onlara etimad göstərdilər! Nədən bəs onlar digərlərinə etimad göstərmirlər?..

Burada bir məsələni də qeyd etmək istərdim. Biz siyasi-tarixi isimlərə yetərincə sayğı göstərmədik. Düşündük ki, bu adları mənimsəmək kifayətdir ki, uğur bizə tuş gəlsin. Düşünürdük ki, bu adlar bizim ictimai şüura proyeksiyamızı asanlaşdıracaq. Daha insanlar "Bu kimdir? Bu hansı partiyadır?" deməyəcəklər. Ona görə də indi müəyyən mənada adların qisasını yaşayırıq. Əlbəttə, durub filan adlı partiyanı necə taleyin ümidinə buraxasan?

Riskli deyilmi? Əlbəttə risk var. Fəqət, bunu vaxtında bilmək lazım idi. Biz bu adları mənimsəməyə çalışmaqla təkcə özümüz üçün deyil, tarix üçün də problem yaratdıq, tarixin müəyyən hissəsini də müxalifətçi etdik. Özümüzü elə apardıq ki, guya həmin tarix canlı olsaydı yüzə-yüz bizim tərəfimizdə olacaqdı...

Bunları yazıram, bir sual keçir beynimdən: İlahi, biz nə qədər problem yaratmışıq? Nə vaxtsa bu problemlərin bizdən hesabı soruşulsa onda nə cavab verəcəyik? Onda da öz mövqelərimizdən dörd əllə yapışacağıqmı?..

# Pənah Hüseyn yeni yaradılacaq hərəkatın adını açıqladı

## Sabiq baş nazir: "Ciddi sarsıntılar gözlənilir"

**AXP sədri, sabiq baş nazir Pənah Hüseynin "Yeni Müsavat"ın 10 noyabr sayındakı müsahibəsi geniş əks-səda doğurub. Partiya sədri 1 noyabr seçkilərini, seçkilərdən sonrakı durumu dəyərləndirərkən bildirib ki, Azərbaycan siyasətində yeni mərhələnin liderlərindən biri olmağa iddialıdır.**



*Müsahibə son günlərdə sosial şəbəkə və mətbuatın əsas müzakirə mövzularından birinə çevrilib. Hər kəsi yeni yaradılacaq hərəkatın adı, gələcək hədəfləri maraqlandırır. Qurumun yaradılmasına münasibət heç də birmənalı olmadı. Həm müsbət, həm də mənfi fikirlər səsləndi. Amma müsbət fikirlər çoxluq təşkil edir.*

Pənah bəylə iddiasını ortaya qoyandan sonra yaşanan situasiya ilə bağlı söhbət etdik.

***- Pənah bəy, bildiyimiz kimi, Azərbaycan siyasətində yeni mərhələnin lideri olacaq şəxslərdən biri olacağınızı elan etmisiniz. Reaksiyalar necə oldu?***

- Daha dəqiq ifadə etsək, mən bu mərhələdə liderliyə iddialılardan biri kimi özümü göstərmişəm. Əsas tezis isə budur ki, indiki mərhələdə siyasi müxalifətin əsas problemi lider təşkilatın hansı təşkilat olması və liderlərin kim olmasıdır.

***- İndiki mərhələ dedikdə nəyi nəzərdə tutursunuz? 2018-ci ilə qədərki dövrümü, yəni prezident seçkiləri dövrünümü nəzərdə tutursunuz?***

- Siyasi planlaşdırmada seçkidən-seçkiyə qədərki dövrülükdən əl çəkmək lazımdır. Konkret bu günün, sabahın və o biri günün fəaliyyətini planlaşdırmaq lazımdır. Yeni mərhələnin isə mahiyyəti ondan ibarətdir ki, Azərbaycan daxil olduğu region və bütün dünya ilə birlikdə dərin geosiyasi, sosial-iqtisadi böhranın içinə girmişdir. Ciddi sarsıntılar gözlənilir. Bu böhran dövründən Azərbaycanı, Azərbaycan insanını, xalqı mümkün qədər az zərərlə qurtarmaq ən ciddi milli vəzifə kimi qarşıda durur. Əgər düzgün yol tapılmasa, zəruri dəyişiklik və islahatlar edilməsə, fəlakət qaçılmaz olacaq. Mənim və mənim kimi düşünənlərin, istər iqtidarda, istərsə də müxalifətdə gəldiyi qənaət ondan ibarətdir ki, bizi bu böhrandan dəyişiklik və islahatlara yönəlik ictimai-siyasi, intellektual, mədəni xalq hərəkatı qurtara bilər. Bu hərəkatın ideyasını milli həmrəylik təşkil etməlidir. Azərbaycan naminə böhrana, sarsıntılara, korrupsiyaya, dövlət rekertinə, məmur özbaşınalığına, işsizliyə, yoxsulluğa, bahalığa qarşı, eləcə də Qarabağ uğrunda bölücülüyə, terrorçuluğa, ekstremizmə, xarici təhdidlərə qarşı milli həmrəylik olmalıdır. Bu milli həmrəyliyin siyasi əsasını Məhəmməd Əmin Rəsulzadənin "Milli Təsanüd" nəzəriyyəsi təşkil edir.

***- Yeni yaradılacağının anonsunu verdiyiniz hərəkatın adı varmı?***

- Fikrimcə, belə bir hərəkat yaradılacaqsa, özünün ana ideyası ilə "Həmrəylik" və ya "Azərbaycan Naminə Həmrəylik" adlandırıla bilər. Yeri gəlmişkən, bu ideyanın adma bağlanması qətiyyən düzgün deyil. Xatırlatdığınız müsahibədə də demişdim ki, 1 noyabra qədər bu tipli ideyalar cəmiyyətin geniş kəsimlərindən, hətta özünü yeganə müxalifət adlandıran Milli Şura düşərgəsindən, Müsavat Partiyasından, gənclik hərəkatı liderlərindən səsləndirilib.

***- Hərəkat yaradılması istiqamətində digər siyasi qurumlarla danışıqlar aparılırmı?***

- Hələlik siyasi müxalifət düşərgəsindən susqun, ehtiyatlı münasibət üstünlük təşkil edir. Daha çox müraciət edənlər, maraqlananlar gənclər və milli demokratik düşərgənin veteranlarıdır. Yaxın vaxtlarda mütəşəkkil məsələhətləşmələrin aparılacağını gözləmək olar.

***- Yaradılacağı ehtimal olunan yeni hərəkat hazırda sizin də təsisçisi olduğunuz "Azadlıq 2015" seçki blokunun üzərindənmi qurulacaq?***

- "Azadlıq 2015" çox böyük ehtimalla tarixə qovuşacaq. Mənim də tərəfdar olduğum odur ki, son 1 ildə "Azadlıq 2015"in də iştirakçısı olduğu kurs, iqtidarla dialoq kursu bu hərəkatla da saxlanılsın. Lakin bu məsələ kifayət qədər problemli məsələdir. Mənimcə, milli həmrəylik çərçivəsində reallaşdırıla biləcəksə, hansısa formada həmin kursun saxlanılacağına güman var.

**❑ Cavanşir ABBASLI**

# İltizam Əkbərli Müsavatdan gedə bilər

## Sabiq deputat MSK-ya dəvət edilib

**Xəbər verdiyimiz kimi, Müsavatın parlament seçkilərində iştirakdan imtina haqqında 28 oktyabr 2015-ci il tarixli qərarına rəğmən seçkidə iştirakını davam etdirmiş 79 saylı İmişli seçki dairəsindən deputatlığa namizədi İltizam Əkbərlinin partiya intizami məsələsinə baxılıb. Partiyadan xaric edilməsi və ona töhmət verilməsi təklifləri səsə qoyulub. Səs çoxluğu ilə İltizam Əkbərliyə töhmət verilməsi barədə qərar qəbul olunub.**



Qeyd edək ki, İltizam Əkbərli 2005-2010-cu illərdə Milli Məclisin deputatı olub, hazırda Müsavat Məclisinin üzvüdür. İltizam Əkbərli ilə əlaqə saxlayıb Müsavat Divanının onun məsələsini müzakirəyə çıxarmasını və töhmət qərarı verməsini necə qarşıladığını xəbər aldıq. İ.Əkbərli öncə bildirdi ki, hər zaman təmsil olunduğu partiyanın qərarlarına sayğı ilə yanaşıb və bu gün də həmin mövqedə qalır. Divanın sözügedən qərarına ətraflı münasibət bildirməyə isə İ.Əkbərlinin başının işlərə qarışıq olması səbəbindən vaxtı yoxdur: "Seçkilərlə bağlı Mərkəzi Seçki Komissiyasına verdiyim şikayətlə bağlı çox ciddi iş gedir və sənədlər hazırlayıram. Şikayətimlə bağlı noyabrın 12-də Mərkəzi Seçki Komissiyasına dəvət olunmuşam. 79 saylı seçki dairəsində ciddi qanun pozuntularının olduğunu sübuta yetirən faktlarım, sənədlərim var. MSK-nın iclasına ciddi hazırlaşıram ki, namizəd olduğum dairədə seçki pozuntularının kütləvi olduğunu dəqiq şəkildə sübuta yetirim. MSK-da şikayətimə baxılıb yekunlaşdıqdan sonra mən Müsavat Divanının barəmdə çıxardığı qərara münasibətimi ətraflı bildirəcəyəm. İndilikdə isə deyə bilərəm ki, mən öz mövqeyimi haqlı bilirəm. Seçkidə sonadək iştirak qərarımı düşünüb vermişəm, seçicilərimə söz vermişdim. Seçkidən 10 gün keçib, bu gün də tutduğum mövqeni haqlı hesab edirəm".

**"Müsavatdan bildirilib ki, partiyanın siyahısı ilə seçkidə iştirak edən Müsavat üzvləri partiyanın qarşısında öhdəlik götürüblər. Öhdəlik götürmüşdünüzmü" sualına İ.Əkbərli belə cavab verdi:** "Yalnız ümumi şəkildə öhdəlik elan eləmişdik ki, əgər deputat seçilərikse, partiyanın qərarlarına tabe olacağıq. Öhdəliyimiz bu cür olmuşdu. Biz namizədliyimizi irəli sürəndə seçkidə axıra qədər iştirak etmək öhdəliyini götürmüşdük. Partiya seçkiyə üç gün qalmış seçkidən çəkilmək qərarı verdi. Bu qərarın siyasi əhəmiyyətini nəzərə almasaq, hüquqi əsası yox idi. Çünki Seçki Məcəlləsində namizədlikdən imtina ilə bağlı seçkiyə ən geci 10 gün qalmış qərar verilməli olduğu tələbi əksini tapır. Əvvəldən bəlli idi ki, seçkiyə üç qalmış verilən qərarı MSK nəzərə almayacaq və namizədlərin ərizələri qəbul edilməyəcək. Belə bir vəziyyətdə namizədlikdən imtina ərizəsi verməyin əhəmiyyəti də qalmırdı. Əgər Müsavat seçkidən çəkilmək barədə qərarı ya təşviqat kampaniyası yeni başlayanda, ya da heç olmasa seçkiyə 10 gün qalanda versəydi, mən partiyanın qərarına tabe olacaqdım və namizədliyimi geri götürmək üçün ərizə verəcəkdim".

"Müsavat seçkidən çəkilmək qərarı verdikdən indiyə qədər partiyanın başqanı və rəhbərliyinə daxil olan digər şəxslərlə görüşünüz, danışığınız olubmu" sualına isə cavabında İ.Əkbərli dedi ki, mərkəzi seçki qərargahının rəhbəri Gülağa Aslanlı ilə fikir mübadiləsi aparıb: "Münasibətlərimiz qarşılıqlı hörmət çərçivəsindən kənara çıxmayıb".

**"Noyabrın 12-də Bakıya gələcəksiniz və Müsavatın 500 metrliyindəki Mərkəzi Seçki Komissiyasında olacaqsınız. Yaranmış vəziyyəti müzakirə etmək üçün Müsavat qərargahına gəlməyiniz gözlənilirmi" sualına keçmiş deputat belə verdi:** "Gəlin bu məsələləri saxlayaq MSK-da mənim şikayətimə baxılmasından və qərardan sonraya".

**"Partiyadan istefa verməyiniz ehtimalı varmı" sualını isə İ.Əkbərli bu cür cavablandırdı:** "MSK-da şikayətimlə bağlı araşdırmalara dəvət olunmuşam. Bütün məsələlərə MSK-da müzakirələr bitəndən sonra münasibət bildirməyimi məqsədəuyğun sayıram".

**❑ Etibar SEYİDAĞA**


Eynulla Fətullayev


Elşad Abdullayev

# Elşad Abdullayevlə Eynulla Fətullayev arasında yeni polemika

## Sabiq rektor "o, mənim verdiyim gizli videolarla alver edib" deyir

**Bu günlərdə fəaliyyətini dayandırmış ABU-nun sabiq rektoru, Fransada yaşayan Elşad Abdullayev haqqın.az saytının baş redaktoru Eynulla Fətullayevlə bağlı bir müraciət yazıb. Bunu sosial şəbəkədəki statusunda paylaşan E.Abdullayev bildirib ki, ümumiyyətlə E.Fətullayevin dəst-xətti hamıya məlumdur: "MTN həbs edirdi, Eynulla Fətullayev də günahsız adamları KİV-də ləkələyirdi.**

O, həm də adam oğurluğu ilə məşğul olan cinayətkar şəbəkənin cinayətlərini ört-basdır etmək məqsədilə başqa saxta "fabrikovat" olunmuş problemləri KQBsayağı şişirdib yazılar tirajlayır".

**E.Abdullayev iddia edib ki, E.Fətullayev ona verdiyi gizli videogörüntülərlə bazarlıq edib, jurnalist etikasını ucuzlaşdırıb və özünü itirib:** "Strasburqda - Avropa Məhkəməsində mən ilk gizli videogörüntüləri jurnalist bilib Eynulla Fətullayevə verdim, həmin vaxt o, ilk dəfə olaraq MTN generalı Akif Çovdarovun Elmar Hüseynovu qətlə yetirməsini ifşa etmişdi, Avropa Məhkəməsi onun həbsdən azad edilməsini tələb etdi və azadlığa yenicə çıxmışdı".

**E.Abdullayev deyib ki, onların Strasburqda görüşlərini Azərbaycan hökuməti ilə işbirliyində olduğunu sonradan bildiyi Strasburq Mədəniyyət Evinin rəhbəri Mustafa Alınaca, APA nümayəndəsi jurnalist Fuad Quliyev və sonralar ona terror təşkil etməkdə suçlanan Əliheydər Ağayev həvəslə təşkil ediblər:** "Həmin ərəfələrdə Eynulla Fətullayev hazırda saxta ittihamlarla həbs edilmiş REAL Hərəkatının lideri İlqar Məmmədovla Strasburq İBİS Hotelində qalırdı. Mən hiss edirdim ki, İlqar Məmmədov Eynulla Fətullayevə inanmır. O mənə bildird ki ona inanmayın, ona gizli videogörüntü verməyin. İlqar Məmmədovun danışığından başa düşdüm ki, o, Eynulla Fətullayevə inanmır. Elə göründüyü kimi, Eynullanın İlqar Məmmədovun yanında qalması da təsadüfi bir işə oxşamırdı, planlaşdırılmış qurğuya oxşayırdı.

Bizdə dəqiq məlumat vardır ki, Eynulla Fətullayevi saxta ittihamlarla həbsə atdıran da MTN generalı Akif Çovdarov olubdur. Cünki ilk dəfə olaraq, mərhum jurnalist Elmar Hüseynovun qətlinin üstünü jurnalist Eynulla Fətullayev açıb. O, maddi sübutlarla yazırdı ki, jurnalist Elmar Hüseynovun qətlinin təşkilatçısı Akif Çovdarovdur. O, sonralar Akif Çovdarovun diqtəsilə işləməyə başladı. Özünü itirdi".

### Eynulla Fətullayev: "Onun verdiyi videosüjetlərin surətini baş prokurora təqdim etdim, bunu özünə də dedim"

**Eynulla Fətullayev isə E.Abdullayevin məlum ittihamları ilə bağlı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, sabiq rektorun dedikləri həqiqətdən uzaqdır. O, E.Abdullayevin ona verdiyi videosüjetlərin surətini Azərbaycan Respublikası baş prokuroruna təqdim edib:** "Bunu Elşad Abdullayevin özünə də demişəm. Müraciət yazmışam və bu müraciət əsasında həmin videoları baş prokurora təqdim edərək xahiş etmişəm ki, burda göstərilən faktlar araşdırılsın, həqiqət ortaya çıxarılsın. Mən onu prokurorluğa verəndən sonra onun özü də bu videoları yaymağa başladı. Mən nə etməliydim ki? Bilirsiniz ki, Elşad Abdullayev olduqca qeyri-müəyyən reputasiyaya malik olan adamdır. Bu hakimiyyətin ən böyük tərəfdarlarından, eyni zamanda universitet rektoru idi. Strasburqda olanda mənim yanıma gəldi ki, videolarım var. Mən soruşdum ki, siz MTN-də çalışırsız ki, gizli videolar da çəkirsiz? O videolara baxdım, amma heç nə anlamadım. Olduqca xaotik videolar idi. Üstəlik, Elşad Abdullayevin təsvir etdiyi kimi də deyildi. Çünki o deyirdi ki, bu videolarda qardaşımın oğurlanması ilə bağlı faktlar var. Amma mən izləyəndə gördüm ki, bunlar tamamən mücərrəd və işə aidiyyəti olmayan videolardır. Ona görə də təşkilatımızın adından baş prokurora rəsmi məktub yazdım. O zaman media orqanım yox idi, həbsxanadan yeni çıxmışdım. İnsan Haqları Uğrunda İctimai Birliyin sədri idim".

**Konkret A.Çovdarov barədə məsələyə gəlincə, müsahibimiz dedi ki, zamanında bu şəxs barədə çox danışıb:** "Amma mən danışanda heç kim danışmırdı. Ona görə də mən indi danışmıram. Bu gün danışmayanlar danışsın".

❑ **Sevinc TELMANQIZI**



# Prokurorluğa göndərilən təqdimat Akif Çovdarova nə vəd edir

## Yalçın İmanov: "Deməli, ortada konkret faktlar var və..."

**Milli Təhlükəsizlik Nazirliyinin (MTN) iki generalı haqda Baş Prokurorluğa təqdimat göndərilib. Bir müddət əvvəl vəzifələrindən azad edilərək sərəncama götürülmüş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi, general-mayor Akif Çovdarov və qurumun Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin rəisi, general-mayor Sübahir Qurbanov təhlükəsizlik orqanlarından xaric ediliblər və əməllərinə hüquqi qiymət verilməsi üçün toplanmış materiallar Azərbaycan Baş Prokurorluğuna təqdim edilib.**

Belə bir təqdimat 2 generala nə vəd edir?

Vəkil Yalçın İmanov deyir ki, əgər 2 general haqda belə bir sənəd Baş Prokurorluğa göndərilibsə, deməli, ortada konkret faktlar var: "Toplanmış ilkin materiallar prokurorluğa göndərilirsə, burada təqdimat məfhumundan istifadə olunması uyğun yanaşma deyil. Təqdimat hər hansı bir cinayət işi üzrə şəxsə ittiham elan olunur. İstintaq dövründə onun barəsində həbs-qətimkan tədbirinin seçilməsi haqda müstəntiq vəsatətlə çıxış edir. Qanunun tələbinə görə, bundan sonra ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror vəsatətlə razıdırsa, bu halda təqdimat hazırlanır. Təqdimatın müşayiəti ilə vəsatət məhkəməyə göndərilir. Və məhkəmədə şəxsin barəsində uyğun qərar verilir.

Bu situasiyada belə anlaşılır ki, təqdimat adlandırılan, əslində isə iki generalın barəsində toplanmış ilkin material onların hər hansı bir qanunsuzluğa yol verib-vermədiyini aydınlaşdırmaq, yekun hüquqi qiymət verilməsi üçün Baş Prokurorluğa göndərilib".

Y.İmanov generalların taleyinin təqdimat adı altında Baş Prokurorluğa göndərilən materialların nə dərəcədə obyektiv araşdırılmasından asılı olduğunu qeyd edib.

❑ **E.HÜSEYNOV**

# ADR Hərəkatı nə zaman sükutu pozacaq...

## Qurumda passiv fəaliyyət müşahidə olunur; hərəkat sədrinin ABŞ-dan dönüşünün ləngiməsi suallar yaradır




**Müsavat Partiyasının bir il öncəki səs-küylü qurultayından sonra qurum daxilindəki narazıların yaratdığı Azərbaycan Demokratiya və Rifah Hərəkatının (ADR) fəaliyyətində sönüklük müşahidə olunur. Xüsusilə bu hal hərəkatın rəhbəri Qubad İbadoğlunun ilin əvvəlində ABŞ-a getməsindən sonra yarandı.**

Yayda Q.İbadoğlunun ölkəyə qayıdacağı deyilsə də, üstündən aylar keçməsinə baxmayaraq, hərəkat rəhbərinin gəlişi yubanır. Bu da beyinlərdə müəyyən sualların yaranmasına səbəb olur.

ADR Hərəkatı parlament seçkilərində də passiv iştirak etdi. Təsadüfi deyil ki, qurum seçki prosesində üç namizədlə təmsil olundu. Doğrudur, təşkilatın qeydiyyatının olmaması fəaliyyətinə müəyyən qədər manelər yaradır.

**Hərəkatın sədr müavini Ellada Məmmədli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, qanunvericiliklə seçki hüquqdan məhrum olunublar:** "ADR Hərəkatı öz fəaliyyətini nizamnamə çərçivəsində, fəaliyyət proqramına əsasən qurmuşdur və bu istiqamətdə də hərəkət edir. Ölkədə mövcud olan qanunvericiliyə əsasən, seçkidə iştirak etmək hüququndan məhrum olmağımıza baxmayaraq, ADR üzvlərinin böyük əksəriyyətinin seçkilərdə iştirak etmək niyyəti yox idi. Bunun səbəbi də ölkədəki hakim dairənin illərlə etdiyi seçki saxtakarlığı idi. 3 üzvümüz seçkilərdə fərdi qaydada iştirak etdi. Nəticədə onlar da seçki saxtakarlığı ilə qarşılaşmış oldular. Həqiqi səsləri onlara hesablanmadı".

**E.Məmmədli hərəkatın sədri Q.İbadoğlunun tezliklə Bakıya qayıdacağını da qeyd etdi:** "Bildiyiniz kimi, ADR Hərəkatının sədri Qubad İbadoğlu hazırda ABŞ-dadır. Onun yoxluğunu hiss etmirik, mütəmadi yazışmalarımız və internet vasitəsilə virtual söhbətlərimiz olur. Lazım olan tapşırıqları kollegial həll edirik. ADR sədrinin çox mobil və çevik ətrafı vardır. Qubad İbadoğlu Bakıya mütləq qayıdacaqdır və bədxahlarının arzusunu ürəyində qoyacaqdır. Bu haqda o, özü də sosial şəbəkədə vətənə dönəcəyini bildirib".

**ADR-in sədr müavini hərəkatın hazırda gördüyü işlərdən söz açdı:** "ADR Hərəkatı əsasən təşkilatlanma ilə məşğuldur. Təbii ki, ölkədə gedən ictimai-siyasi və iqtisadi proseslərdən də kənarda deyil. Ölkədə gedən hər bir prosesə də idarə heyəti səviyyəsində münasibət bildirir. Müsavat Partiyasında kifayət qədər üzvlərimiz vardır. Hamıya bəllidir ki, Müsavat Partiyasının böyük əksəriyyəti hərəkatımızın üzvləridir. İnsanlar öz əqidə və düşüncələrinə görə istədiyi siyasi partiyanı və ictimai birliyi seçə bilərlər. Çox təəssüf ki, Müsavat rəhbərliyi ADR-i böyük qısqanclıqla qarşılayır. ADR üzvləri partiyanı tərk edərlərsə, orada rəhbərlikdən başqa heç kim qalmayacaq".

❑ **Cavanşir ABBASLI**



# Turşu xiyar mövsümü

**Zamin HACI**
zaminhaci@gmail.com

## (Əkrəm Əylisliyə nəzirə)

**Sovet dövründə bir raykom katibi olub: Murad Aşurov. Bunun çox "savadlı" sürücüsü var imiş. Harasa gedəndə Murad müəllim "Qabaqdan sağa dönərsən" deyəndə sürücü əli ilə göstərib soruşurmuş: "Murad müəllim, belə sağa?"**

Bunu bir dostumuz xatırladı və dünən mənə zəng vurub danışdı. Özü də seçkinin gülməli əhvalatına nəzərən. Yəqin xəbəriniz var, baş nazirimiz Artur müəllim builki deputatxana seçkisində saxtakarlığa yol vermişdir. Qanuna görə ultrabənovşəyi mürəkkəb səsverməyə gedən adamın sol əlinin baş barmağına vurulmalıdır, Artur müəllim isə sağ əlinə vurdurub, bu da fotojurnalistlərin kamerasına yaxalanıb. Kim bilir, bəlkə də Artur müəllim hansısa onbaşının dəstəsinə daxil olaraq seçki karuselində iştirak edibdir. Maaşı azdır, onunla necə dolansın?

Əlbəttə, qanuna görə seçici - indiki halda Artur müəllim - ultrabənövşəyi mürəkkəbi başqa barmağına da vurdura bilər. Yalnız o halda ki, iraq olsun, sol əlinin baş barmağı olmasın. Baş nazirimizin isə son məlumatlara görə bütün barmaqları, maşallah, yerindədir və həmişə yerində olmasını uca kosmosdan diləyirik! İlahi, amin! Hare Krişna! Om mani padme xum! Erkir paqanem ter Astvats! *(Axırıncı duanı məxsusi SOKAR üçün yazdım, bax, sözümüz sözdür ha, qazpulu verməyəcəyəm, mənim qazımı kəsəni də Astvatsa tapşırıram).*

Ancaq dostumuzun versiyasına görə, Artur müəllim sağla solu tanımır və seçki komissiyasının barmaq mürəkkəbləyən əməkdaşına "Bu sağa?" deyə sual veribdir. Nə biləsən...

Başqa bir olduqca ciddi durum MTN-in keçmiş şefi, respublikanın əməkdar reketi Eldar müəllimin ətrafında yaranıb. Hər gün onun bir dəstə qohumunu, tərəfdarını MTN-dən işdən çıxarırlar. Hətta bir gün Mahmudovun 80 qohumunun işdən çıxarıldığı yazılmışdı, sanki MTN Hindistan Tayfa Nazirliyi imiş. *(Orda doğrudan da belə nazirlik var, sadəcə, funksiyası Hindistanda saysız-hesabsız olan tayfa və klanlar, kastalar və qəbilələr arasında münasibətləri tənzimləməkdən ibarətdir).* Ancaq daha güclü müqayisə obyekti tapmışam. Bu saat MTN-lə AXCP arasında qəribə bənzərlik yaranmışdır, çünki orda da sədr Əli Kərimlinin və başqa aktiv cəbhəçilərin qohum-əqrəbalarını işdən çıxarır, zindana salırlar. Kef onda olar ki, işdən çıxarılan MTN əməkdaşları alternativ "MTN" düzəltsinlər. Adını da KMTN, BAMTN, RAZMTN qoymaq olar. *(Abreviaturaların açmasını yazmıram, qan düşər. Nəyimə gərəkdir ağrımaz başıma buz bağlayım?)*

MTN və başqa dövlət idarələrində adi hala dönmüş həbsləri, işdən qovulmaları yeni iqtisadi siyasətlə də bağlamaq olar. Neft gəlirləri azaldığı üçün ixtisar aparırlar - vəssalam. Bu ixtisarlar bütün sahələri bürümüşdür. Srağagün DİA Holdinqə daxil olan Sinerji Pro mühəndislik şirkətindən də bir qrup yoldaş məktub yazıb, deyirlər hamımızı ixtisar elədilər. Daha heç kim gözəlləşən, hasarlaşan, ənlikləşən, kirşanlaşan Bakımıza tamaşa eləmək istəmir, hamı qan ağlayır.

Amerikanın neft şirkətləri ofislərini bağlayıb Abşerondan qaçırlar - dünən Şlumberqer şirkətinin burdakı törəmə qurumu getdi. Fikrimcə, neft pulları əvvəlki səviyyədə qalsa heç Eldar müəllimi və onun yəcuc-məcuc qəbiləsi kimi sayı bilinməyən qohum-əqrəbalarını da ixtisara salmazdılar. Yemək yoxdursa, birinci ən yekə qarnı olanı kəsirlər. Bu, kənd təsərrüfatında qızıl qaydadır. Biz isə tarixən aqrar ölkə olmuşuq, bir az arada neft-qaz çıxarmaqla dəyişmədik. Hətta neft pullarının ən sel vaxtında da Bakının mərkəzində çobanlar tütək çalıb qazonda sürü otarırdılar. Danalar ipini qırıb AzDrama-nın qənşərində tozanaq qoparırdılar.

Yazını isə sözümüzü açdığımız adamın - Artur müəllimin indi təzədən aktuallaşan və dövləti əhəmiyyət daşımağa başlayan qızıl kəlamı ilə bitirmək istəyirəm: "İqtisadi böhranı yaradan əsas səbəb insanların qışda təzə xiyar yeməsidir. Baha qiymətə təzə xiyar alırlar, inflyasiya artır. Nə məcburdur qışda təzə xiyar yeyəsiniz? Turşusunu yeyin, mən həmişə qışda xiyar turşusu yeyirəm. Təzə xiyarı isə yayda yeyirəm". Sitatın sonu.

# Xəzərdə nazirimizə qarşı müdhiş əməliyyat

# "Rusiya Ziya Məmmədovun 17 ton pulunu tutub" - şok iddia

## Nəqliyyat nazirinin var-dövlətini daşıyan gəminin Rusiya Federal Təhlükəsizlik Xidmətinin xüsusi əməliyyatı nəticəsində saxlanıldığı deyilir; Moskva nəyin qisasını alır?



**Nəqliyyat naziri Ziya Məmmədovun ətrafında yaranmış mübhəmlik hələ də davam edir. Z.Məmmədov ötən ayın 20-dən üzə çıxsa da, oktyabrın 23-də Neftçala rayonunda PA-nın tərtib etdiyi qrafik üzrə yerli sakinlərlə görüşə də onun barəsində söz-söhbət tam səngiməyib. Nəqliyyat nazirinin Neftçalada jurnalistləri nəzərdə tutaraq zarafatla dediyi "bəs yazırdız ki, qaçıb" replikası da onun ətrafında yaranmış informasiya burulğanını azaltmadı.**

MTN-dəki məlum hadisələrdən sonra Z.Məmmədovun görünməsi medianın diqqətindən yayınmadı. Mətbuat analitikləri onun karyerasının sönməməsində "MTN işi"nin ciddi rol oynadığı qənaətindədirlər. Analitiklərin fikirlərini ümumiləşdirərək belə yazmaq olar ki, Eldar Mahmudovun "vurulması" Ziya Məmmədovu, sözün siyasi mənasında, ipdən alıb. İddialara görə, nəqliyyat naziri haqda mənfi yüklü informasiyaları dövlətin ən yuxarıdakı instansiyasına məhz E.Mahmudov ötürürmüş. Lakin bu fikir də mübahisəlidir. Ona görə ki, "ən yuxarıdakılar"ın informasiya təminatı yalnız MTN-in üzərinə düşmür. Dövlətin siyasi sükanı arxasında əyləşmiş şəxslərin məlumat kanalları bir neçə olur. E.Mahmudovun həmkarı haqda yalan-doğru ötürdüyü xəbərlər güman ki, bir neçə instansiyadan yoxlanıb. MTN-in nəqliyyat naziri barəsində hazırladığı dosyedə doğru informasiyalar da olmamış deyil. 13 il nazir işləyəsən, amma bütün fəaliyyətin şəffaf ola. Hardasa yanlış yapmayasan - heç inandırıcı görünmür.

İşin maraqlı tərəfi budur ki, ictimaiyyət Z.Məmmədovun işdən çıxarılacağını, hətta həbs olunacağını gözləyərkən, ayrı bir nazirin vəzifədən çıxarılması haqda prezident sərəncamı verildi. Siyasət də futbol kimidir: bəzən 90-cı dəqiqədə hesab dəyişir, məğlub qalib olur, qalib isə məyus...

Bizim yazının qəhrəmanı nə qədər qalibdi, bunu söyləmək yəqin tez olar. Yerindən tərpədilən daşlar hələ yerinə tam oturmayıb. Ölkə prezidenti şahmat taxtasının arxasından tam çəkilməyib. Proses davam edir...

Həm də Z.Məmmədovu birmənalı qalib elan etmək də mümkünsüzdü. O, son aylar çox zəiflədildi. Nəqliyyat Nazirliyinə aid xeyli qurum müstəqil təşkilata çevrildi, bir neçə sahə Z.Məmmədovun nəzarətindən və təbəçiliyindən çıxarıldı. Artıq cənab Məmmədovu mətbuat "portfelsiz nazir" kimi təqdim edir.

Belə bir vəziyyətdə Z.Məmmədov barəsində növbəti bir xəbər yayılıb. Nazirin külli miqdarda valyutasının müsadirə olunduğu haqda "Yeni Müsavat"a mötəbər mənbə tərəfindən məlumat daxil olub. İddia edilir ki, bu yaxınlarda Z.Məmmədova qarşı kritik əməliyyat keçirilib. Xəzərdə bildirilir ki, Rusiya Federal Təhlükəsizlik Xidməti (FTX) nazirimizin 17 ton (!) dollar yüklənmiş gəmisini saxlayıb. Deyilənə görə, əməliyyat Xəzərin Rusiyaya aid bölümündə baş tutub. 17 ton dollarlıq yük aparan gəmi Dağıstan istiqamətinə üzürmüş. Bildirilir ki, qaçaqmal daşıdığına görə, gəmi RTX-nin radarlarına düşüb. Hazırda gəminin harda saxlanıldığı haqda dəqiq bilgi verilmir.

Z.Məmmədov çapında adam təminat almadan, təhlükəsizlik tədbirləri görmədən bu qədər riskə getməzdi. Adətən bu cür daşımalar öncədən razılaşdırılır. Nəzərə alsaq ki, nəqliyyat nazirimizin Kremllə münasibətləri həmişə yaxşı olub. Bəs ona qarşı bu əməliyyatın arxasında nə dayana bilər? Moskva nəyin qisasını alır? Bunun sırf reketlik, yoxsa siyasi sanksiya olduğunu söyləmək çətindir.

Xatırladaq ki, 2013-cü ilin avqustunda oxşar hadisə olmuşdu. FTX qaçaqmal neft daşıyan "Naftalan" adlı Azərbaycana məxsus tankeri saxlamışdı. Həmin tanker Rusiya tərəfindən müsadirə olunub.

**Mövzu ilə bağlı qarşı tərəfin də münasibətini dərc etməyə hazırıq.**

**❑ Aydın ASLAN**

# Manat kəskin devalvasiyaya getməsə də, ucuzlaşacaq

## "Azərbaycanın bütün makroiqtisadi göstəriciləri və dünyada baş verən iqtisadi proseslər onu göstərir ki, milli valyuta dəyərdən düşəcək"

**Dünya bazarında dollar bahalaşması manatın növbəti devalvasiyasına səbəb ola bilər. Bu fikirlə iqtisadçı ekspert Samir Əliyev ötən gün mətbuatda çıxış edib. İqtisadçının sözlərinə görə, ABŞ iqtisadiyyatı ilə bağlı müsbət statistik məlumatlar bu dəfə də dollara əlavə dəstək verib və dünya valyutası bahalaşmağa başlayıb.**



İqtisadçının sözlərinə görə, dünyada dollar əsas valyutalara münasibətdə möhkəmlənir və Azərbaycanda da artıq dollar 1,051 manat həddinə kimi bahalaşıb. Lakin bu, üzən məzənnə siyasətinə keçid deyil: "Üzən məzənnəyə keçid Azərbaycanda yaxın dövrlərdə mümkün deyil, hətta məsləhət deyil. Çünki onun fəsadları ağır ola bilər".

**İqtisadçı onu da deyib ki, devalvasiyanın baş verməsi zaman məsələsidir və hökumətin qərarından asılıdır:** "Bu üzən məzənnəyə keçid, fevral ayında olduğu kimi, "valyuta ehtiyatlarını qorumaq və ixracı stimullaşdırmaq" adı altında da ola bilər. Hər bir halda bütün yollar ona aparır".

Bundan əlavə, manat bu ilin fevral ayında baş verən devalvasiyadan sonra ilk dəfə dollara qarşı məzənnəsində 1.05 psixoloji həddini keçib. Hazırda 1 dollar 1.0504 manatdır. Manatın bu cür yumşalması da devalvasiyanın olacağı ilə bağlı ehtimalları artırır.

**Səslənən proqnozları dəyərləndirən iqtisadçı ekspert Natiq Cəfərli hökumətin fevral ayında olduğu kimi kəskin devalvasiyaya getməyəcəyini vurğulayıb:** "Manatın məzənnəsinin zəifləyəcəyi heç kimə sirr deyil. Azərbaycanın bütün makroiqtisadi göstəriciləri və dünyada baş verən iqtisadi proseslər onu göstərir ki, manata təzyiq getdikcə artacaq. Neft gəlirlərinin azalması, dünyada dolların güclənməsi manata basqıları daha da artıracaq. Ancaq hökumətin fevral ayındakı kimi 30-35 faizlik kəskin devalvasiyaya getməsi ehtimalı çox aşağıdır. Çünki birinci devalvasiya Azərbaycan iqtisadiyyatına o qədər ağır təsir göstərdi ki, hələ də Azərbaycan özünə gələ bilmir. Bank sektoru ayaqda qalmaqda çətinlik çəkir, pis vəziyyətdədir. İqtisadi aktivlik xeyli dərəcədə zəifləyib, əhalinin gəlirləri azalıb. Bunun ən böyük səbəblərindən biri də kəskin devalvasiya oldu. Ona görə də Mərkəzi Bank da, Maliyyə Nazirliyi də çətin ki, kəskin şəkildə manatın məzənnəsinin dəyişməsinə getsinlər. Bu, Azərbaycan iqtisadiyyatının onsuz da ağır olan vəziyyətini daha da çətinləşdirə bilər, iqtisadiyyatı çökdürə bilər".

**İqtisadçı ekspertin fikrincə, hökumət kəskin devalvasiyaya getməmək üçün üzən məzənnə siyasəti üzərində işləyir:** "Bunun adı üzən məzənnə olsa da yavaş-yavaş manatın məzənnəsinin zəiflədilməsi yolunun tutulduğu açıq-aşkar görünür. Manatın devalvasiyasından sonra 1 dollar -1.05 manat psixoloji hədd idi. İndi artıq 1 dollar 1.0504 manatdır. Bu özü bir siqnaldır ki, hökumət günbəgün manatın dəyərdən düşməsinə gedəcək. Bu, davamlı olacaq və qısamüddətli bir proses deyil. Bu prosesə təsir edə biləcək yeganə amil neftin qiymətinin kəskin şəkildə artması ola bilərdi ki, o da yaxın gələcəkdə mümkün deyil. Əgər neft 40 dollardan da aşağı düşəcəksə, o zaman Mərkəzi Bank manatın ucuzlaşması istiqamətində addımlarını daha da sürətləndirməli olacaq və üzən məzənnə adı altında tez-tez yumşalmaya başlayacaq. Ancaq neftin qiyməti hazırkı həddə qalsa, bu zaman manatın ucuzlaşması tədricən gedəcək".

**Natiq Cəfərli manatın dəyərdən düşməsinin səbəbi kimi, dünya bazarında dolların bahalaşmasına səbəb olan amilləri də nəzərə almanın vacib olduğunu bildirdi:** "ABŞ-ın Federal Ehtiyat Sisteminin (FES) faiz artımı ilə bağlı bəyanat verməsi bir çox ölkələrdə yatırımların Amerikaya dönməsinə səbəb olacaq. Artıq dünya birjaları bu xəbəri alıblar. Son günlərdə dolların bahalaşmasının da əsas səbəbi budur. Bu proses dekabr ayının 17-nə qədər davam edəcək. Dekabr ayında FES-in iclasıdır və səsvermənin nəticələri açıqlanacaq. Əgər faiz artımı olsa, dolların daha da kəskin bahalaşmasının və möhkəmlənməsinin şahidi olacağıq".

**❑ Nərgiz LİFTİYEVA**

# ABŞ və Rusiya arasında əsəb savaşı başlayıb

## Rusiyanın təyyarə qəzasına məsul olan iki MKİ əməkdaşını tutduğu deyilir; "Böyük iyirmilər"in sammitinə sayılı günlər qalmış Kreml Amerikanı və müttəfiqlərini nüvə zərbəsi ilə hədələdi...

**Rusiyaya məxsus A321 sərnişin təyyarəsinin Misirin Sina yarımadası üzərində vurulması ətrafında az qala, hər gün yeni təfərrüatlar üzə çıxır. Artıq əksər ekspertlər 224 dinc sakinin ölümünə gətirən faciənin terror aktı ilə bağlı olduğuna şübhə eləmirlər.**
**Rusiya rəhbərliyi də tədricən bu versiyanı qəbul eləməyə başlayıb. Hərçənd terror versiyası rəsmi Kreml üçün ən əlverişsiz variantdır, hətta öldürücü bir nəticədir. Ona görə ki, o halda qəzanın dərhal Suriyaya Rusiyanın hərbi müdaxiləsi ilə əlaqəli olduğu üzə çıxır və buna görə Putinin Rusiya xalqına cavab verməsi lazım gələcək.**

Odur ki, rəsmi Moskva maksimum dərəcədə nəticəni gizlətməyə, yaxud gündəmdən çıxarmağa səy edir. Həm də o səbəbə ki, terror aktı Qərbin - ABŞ-ın maraqlarına işləyir - Suriya məsələsində Moskvanın mövqeyini zəiflətdiyi, adekvat olaraq ABŞ-ın, Qərbin, Türkiyənin Yaxın Şərqdəki mövqeyini gücləndirdiyi üçün.

*****

Təsadüfi deyil ki, neçə vaxtdır terror versiyası Qərb KİB-lərində aparıcı mövzu kimi tirajlanır, ABŞ, Böyük Britaniya rəsmiləri bunu vaxtaşırı və dönə-dönə dilə gətirməklə sanki Rusiyanın Suriya siyasətinin artıq iflas olduğuna işarə vururlar.

Bu, gercəkdən də belədir. Fakt budur ki, Rusiyanın ayyarımlıq Suriya əməliyyatı da heç bir ciddi nəticəyə gətirməyib, əvəzində isə ortada 224 nəfərlik canlı itki var. Təbii ki, Kreml də vəziyyətin, Qərbin apardığı informasiya savaşının fərqindədir və çıxış yolları axtarır.

Maraqlıdır ki, məhz bu arada Rusiya təyyarəsinin Böyük Britaniya istehsalı olan "torpaq-hava" tipli raketlərlə vurulduğu haqda iddia ortaya çıxıb. Belə bir informasiyanı Vhatdoesitmean.com portalı yayıb. Sayt raketlərin İŞİD-ə Səudiyyə Ərəbistanı tərəfindən verildiyini iddia edib.

O da bildirilir ki, təyyarənin partlamasından bir müddət sonra rus xüsusi təyinatlıları Yəməndə ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) iki əməkdaşını yaxalayıb. Agentlərlə bərabər onların həddən artıq mürəkkəb cihazları da Moskvanın əlinə keçib. Daha sonra Yəmənin paytaxtı Sənaya Rusiya Fövqəladə Hallar Nazirliyinə məxsus təyyarə göndərilib. Bu zaman Səudiyyə Ərəbistanı həmin təyyarənin havaya qalxacağı təqdirdə onu məhv edəcəyini açıqlayıb. Bir neçə saat ərzində Rusiya Hərbi Kosmik Qüvvələri Səudiyyə Ərəbistanına qarşı cavab tədbirləri görüb. Bu isə FHN təyyarəsinin rahat geri qayıtmasına şərait yaradıb.

Rusiya təyyarəsinin geri dönüşü zamanı İranın "C-130 Herkules" təyyarəsinin onu mühafizə etdiyi də qeyd edilir. Suriyaya uçan təyyarə Qərbə məxsus radar sistemlərinin hədəfi tuta bilməməsinə imkan yaradıb. Sayt ələ keçən hər iki şəxsin Misir təyyarəsinin partladılması əməliyyatına rəhbərlik etdiyini iddia edib.

*****

Hələ ki bu qəbildən məlumatlara rəsmi Vaşinqtonun və MKİ-nin hansı reaksiya verdiyi bəlli deyil. Bəlli olan yalnız odur ki, avia-terror onsuz da münasibətləri gərgin olan vı yeni "soyuq savaş" dövrünü yaşayan ABŞ və Rusiya arasında üstəlik, əsəb savaşı da başladıb. Belə bir savaş həm də "Böyük iyirmilər"in (G20) Antalya sammitinə sayılı günlər qalmış başlaması ilə diqqət çəkir.

Demək, zirvə toplantısı gözlənildən də gərgin keçəcək. İlkin məlumatlara görə, toplantıda onsuz da Suriya, İŞİD mövzusu prioritet olacaq. Rusiyanı isə bu məsələdə G20 üzvlərindən dəstəkləyəcək ölkə demək olar, yoxdur. Əksinə, "Böyük iyirmilik" ölkələrinin mütləq əksəriyyəti və ABŞ başda olmaqla anti-İŞİD koalisiyasının üzvləridir, ya da ən azından məsələdə Birləşmiş Ştatları müdafiə edir.



Başqa sözlə, təyyarə ilə bağlı terror versiyası sammitədək qüvvədə qalsa və ya daha da möhkəmlənsə, o zaman hesab etmək olar ki, Vladimir Putin budəfəki sammitə öncəkindən daha zəif mövqe ilə gedir. Elə diqqətçəkici başqa bir məqam da bu ərəfədə Putinin Ermənistanla ortaq Raketdən Müdafiə Sistemi (RMS) yaradılması haqda sənəd imzalamasıdır.

Muasavat.com-un məlumatına görə, Putin dünənki müşavirədə bəyan edib ki, Moskva Qərbin son vaxtlar güclənən RMS-ə adekvat cavab vermək niyyətindədir. Məsələyə münasibət bildirən Iragir.am erməni portalı isə maraqlı şərh yazıb. Sitat: **"Putin faktiki surətdə təsdiqləyir ki, Qərbin RMS-i altında olan ölkələrə paket zərbələri endirilə bilər. Bu isə məlum olduğu kimi, təkcə Avropa ölkələri və ABŞ deyil, həm də Türkiyə, İsrail, gələn ildən etibarən isə Gürcüstandır. Bəllidir ki, Tiflis öz ərazisində müasir RMS-in yerləşdirilməsinin mümkünlüyü ilə bağlı Fransa ilə ilkin anlaşma əldə edib".**

Sayta görə, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun noyabrın 9-da İrəvana etdiyi səfər də məhz Gümrüdəki Rusiya hərbi bazasının Suriyaya aviazərbələr endirmək üçün dayaq məntəqəsi qismində istifadə eləməklə bağlı olub. **"Bu gün Putin Ermənistanla birgə RMS yaratmaqla bağlı danışıqlara başlamaq göstərişi verib. Ermənistan buna razılıq verməklə faktiki, özü də Qərbin strateji hədəfinə çevriləcək - bütün mümkün nəticələri ilə birgə"**, - deyə portal xəbərdarlıq edib.

*****

Göründüyü kimi, Kreml başçısı da bekar durmayıb və yenidən Qərbi və onun müttəfiqlərini hətta nüvə zərbəsi ilə təhdid eləməyə qərar verib. Heç şübhəsiz, bu günlərdə ABŞ-ın Türkiyədəki İncirlik bazasına əlavə qırıcı təyyarələr göndərməsi də Rusiya təhlükəsinə görə NATO üzvü və müttəfiqi Türkiyənin hava məkanının təhlükəsizliyini gücləndirmək niyyəti güdür. Artıq ilk partiya - 6 ədəd F15S Eagle qırıcı təyyarəsi bazaya eniş edib.

Pentaqon rəsmisi Peter Kuk bildirib ki, Türkiyə hökuməti özü bu xahişlə müraciət edib. İstək birbaşa olaraq rus təyyarələri ilə bağlıdır. O əlavə edib ki, öz müttəfiqinin təhlükəsizliyini qorumaq NATO-nun məsuliyyətinə daxildir.

Xatırladaq ki, oktyabr ayının əvvəlində Suriyadakı mövqeləri bombalayan Rusiya təyyarələri düz iki dəfə Türkiyə sərhədini pozmuşdu. Hadisə ilə bağlı Türkiyə tərəfi ruslara iki dəfə nota təqdim edib.

❑ **Siyasət şöbəsi**

# YAP Güneydə baş verənlərə reaksiya verdi



**Mirmahmud Mirəlioğlu:** "Tehran rejimi beynəlxalq qanunlara riayət etməlidir"
**Aydın Mirzəzadə:** "İran dövlətinin əsasını təşkil edən iki xalqdan biri haqqında təhqiramiz ifadələrin işlədilməsi yolverilməzdir"

## İran səfirliyi isə susur...

**Noyabrın 9-da İran televiziyasında Azərbaycan türklərinə qarşı ağır həqarətlərin yol verilməsinə etiraz edən fəalların bir qisminə hökm oxunub. Tutulanlardan 4-nün yaşı 18-dən azdır. Təbriz, Zəncan, Marağada da xeyli həbs olunanlar var. Ancaq etirazlar səngimir.**

Güneydən gələn məlumata görə, Azərbaycanın böyük şəhərlərində keçirilən kütləvi aksiyalardan bir gün sonra etiraz yığıncaqları universitetlərdə davam etdirilir. Bildirilir ki, noyabrın 10-da Marağa universitetinin öyrənciləri İran Telekanalında türklərin təhqir edilməsinə etiraz ediblər. Etiraz aksiyası Təbriz, Zəncan və Şəhid Mədəni universitetlərində keçirilən etiraz yığıncaqları ilə eyni günə təsadüf edir. Yerli vaxtla saat 11:00-dan 19:00-dək davam edən yığıncağa çoxsaylı azərbaycanlı öyrənci qatılıb. Yığıncağın sonunda İran televiziyasının türkləri təhqir etməsinə qarşı imzatoplama kampaniyası keçirilib, etiraz bəyanatını 500 nəfərdən çox tələbə imzalayıb.

Güney Azərbaycanda fars irqçiliyinə qarşı keçirilən kütləvi etirazlar dünya mediasının da diqqət mərkəzindədir. Məlumata görə, azərbaycanlıların kütləvi etiraz aksiyaları Türkiyə telekanallarında da işıqlandırılıb. "TRT Avaz" telekanalı kütləvi aksiyalardan videogörüntü yayaraq İran televiziyasının türkləri təhqir etməsi və buna etiraz olaraq keçirilən aksiyaları işıqlandırıb. İran parlamentinin Qərbi Azərbaycan əyalətindən seçilmiş deputatı Mehdi İsazadə noyabrın 10-da jurnalistlərə açıqlamasında Azərbaycan türklərinin dövlət televiziyasında təhqir olunmasına münasibət bildirib. Mehdi İsazadə deyib ki, "Fitilə" proqramı əməkdaşlarının etdiyi əmələ görə azərbaycanlılardan üzr istəməsi qəbul edilmir: "Mən ölkənin Məhkəmə Sistemindən bu şəxslərə ən ağır cəza verilməsini istəyirəm. Sırf üzrxahlıq etmək kifayət deyil. Hesab edirəm ki, bu şəxslər cəzalandırılmalıdır. Həmişə Həzrət Əbülfəzl və İmam Hüseyn adları dilində gəzən və onların ətrinin iyi verən azərbaycanlıların ağzı üfunət qoxuya bilməz. Axı biz nə qədər gedib millətə izah edib deməliyik ki, kimsə bir qələt eləyib, siz bağışlayın. "Fitilə"çilər bacarırlarsa indi çıxıb türkdilli əhaliyə cavab versinlər".

**Azərbaycanın quzeyində də baş verənlər həssaslıqla izlənilir. KAXCP sədri Mirmahmud Mirəlioğlu hesab edir ki, Güney Azərbaycanda baş verənlər indiki məsələ deyil:** "Bu, hər zaman olan hadisələrin davamıdır. Televiziyadakı təhqiramiz verilişin dayandırılması, yaxud üzr istənilməsi təsdiq edir ki, bunlar planlı məsələlərdir. Ancaq ən maraqlısı baş verənlərin Azərbaycana təqdim olunması məqamıdır. Hazırda belə təhlillər də var ki, Tehran-Bakı münasibətləri gərginləşə bilər. Münasibətlər gərginləşməyəcək. Çünki bütün dünyaya səs salan "Haray-haray, mən türkəm!" hayqırtılarını, keçirilən aksiyaları Azərbaycan mediası bir az da kiçildir, "azəri" kimi təqdim edir. Bu, yaramaz və çox təhqiramiz hərəkətdir. Hətta Tehran televiziyasının təhqiramiz hərəkətindən daha təhqiramiz olanı millətin adını bilərəkdən bu cür təqdim etməkdir".

**M.Mirəlioğlu bütün baş verənləri qınadığını bildirdi:** "Bütün bunlar fars şovinizminin yürütdüyü siyasətin nəticəsidir, gah sənqiyir, gah güclənir. Amma əslində heç vaxt dayanmır, Azərbaycan türkünə qarşı şovinist siyasət yürüdülür, millətimiz ən azı son 50-60 ildə ardıcıl şəkildə təhqir olunub. Tehran rejimi beynəlxalq qanunlara riayət etməlidir. Eyni zamanda özünün qəbul etdiyi konstitusiyaya uyğun olaraq Azərbaycan məktəblərinin açılmasına yardım etməlidir, nəinki azərbaycanlı yazarları, haqq sözü deyənləri həbs etməlidir. Əks təqdirdə, bu dövlət adından İran İslam Cümhuriyyətindən "İslam" sözünü götürməli, ya da İslam sözünün qarşısına "anti" əlavəsini etməlidir".

**YAP İdarə Heyətinin üzvü, deputat Aydın Mirzəzadə isə dedi ki, bu, İranın daxili məsələsidir:** "Hüquqları pozulan Azərbaycan icması kifayət qədər öz hüquqlarını qoruya bilir. Dövlət kanalında İran dövlətinin əsasını təşkil edən iki xalqdan biri haqqında təhqiramiz ifadələrin işlədilməsi yolverilməz məsələdir. Azərbaycanlıların bu məsələyə etirazını bildirməsi, bu məsələdə özünün milli dəyərlərini qoruması İrandakı mövcud qaydalar çərçivəsində edilir".

Qeyd edək ki, İranda azərbaycanlıların kütləvi etirazlarına səbəb olan İran dövlət televiziyasındakı "Fitilə" adlı proqramı fəaliyyətini dayandırıb, bir neçə məsul şəxs tutduğu vəzifədən uzaqlaşdırılıb. Eyni zamanda televiziyanın direktoru Məhəmməd Sarafraz etiraz edən xalqdan üzr istəyib.

Buna baxmayaraq, İranda azərbaycanlıların etirazları davam edir. Azərbaycanlıların etirazlarına İrandakı digər etnik xalqlar da qoşulublar. Ərəb və bəluc fəallar azərbaycanlıları dəstək xarakteri daşıyan bəyanat yayıblar.

Məsələ ilə bağlı müraciət etdiyimiz İranın Azərbaycandakı səfirliyindən isə sorğumuza cavab verilmədi. Bildirildi ki, baş verənlərlə əlaqədar səfirlik hər hansı münasibət bildirməyəcək.

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 251 (6279) 12 noyabr 2015



# İran Azərbaycandan nə istəyir?

Azər RƏŞİDOĞLU

**Təbriz etiraz aksiyaları ilə çalxalanır. Kənar baxışla görünən budur ki, İran-Azərbaycan münasibətləri yeni mərhələyə qədəm basır. Yaxın zamanlarda Bakı və Tehran arasında münasibətlərin daha da gərginləşəcəyini ehtimal edə bilərik. Görünür, İranın Qərblə münasibətlərini normallaşdırmağa çalışması Bakını narahat edir. Məsələ ondadır ki, Tehranla münasibətlərini normallaşdırmağa çalışan Qərbin Bakı ilə münasibətləri son aylar xeyli dərəcədə korlanıb. Qərb Azərbaycan hakimiyyətinə təzyiqlərini artırır.**

Azərbaycan və ABŞ münasibətlərinin gərginlik yaşadığı bir dönəmdə Tehran və Bakının münasibətlərinin "soyuq müharibə" həddinə çatması təəccüblü görünür. Xarici siyasətində daima "düşmənimin düşməni mənim dostumdur" devizini rəhbər tutan İran məntiqə əsasən Bakı və Vaşinqton münasibətlərinin daha da gərginləşməsinə çalışmalı, əvəzində öz "qardaşlıq missiyasını" təklif etməli idi. Lakin gözlənilənlərin əksinə olaraq, İran-Azərbaycan münasibətlərində gərginliklər artan xətt üzrə inkişaf etməyə başladı. Tehranın Azərbaycana münasibətini emosional amillərlə bağlamaq da düzgün olmazdı.

Tehran rejimi "burnunun ucunda" müstəqil Azərbaycan dövlətinin olmasını özü üçün təhlükə hesab edir. Tehran Şimali və Cənubi Azərbaycan əlaqələrini düşmənçilik həddinə çatdırmağa cəhd edir. İranda yaşayan çoxmilyonlu Azərbaycan türklərinin hüquqlarının pozulması da münasibətlərə təsir etməyə bilməz. İran müstəqil Azərbaycanı özünə təhlükə görür. Əslində Şimali Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra İran üçün bu təhlükə daim gündəmdə olub. Lakin beynəlxalq təcrid, Qərb tərəfindən düşmən obrazında təqdimat, İranı Azərbaycanla münasibətləri düzəltməyə vadar edir. Buna baxmayaraq, İran əmin olmaq istəyir ki, Azərbaycan ABŞ-ın hərbi qüvvələrinə, İsrailin kəşfiyyat orqanlarına ərazisində fəaliyyət göstərməsinə imkan yaratmayacaq.

Bu gün İran rejiminin qalmasında ən maraqlı ölkə kimi Rusiyanın adı çəkilir. Moskva "burnunun dibində" amerikapərəst bir rejimin olmasında maraqlı deyil. İrana sahib olmaq Orta Şərq, Cənubi-Qərbi Asiya, Cənubi Asiya, Cənubi Qafqaz, Orta Asiya, Fars körfəzi, Ərəb dənizi, Xəzər dənizinə çıxış əldə etmək deməkdir. Buna ABŞ-ın sahib olması isə Rusiyanın sonu demək olardı.

Qeyd edək ki, İranın Azərbaycana təsir imkanları yetərincədir. Vaxtilə İran İslam Respublikasının qurucusu ayətullah Xomeyni belə bir şüar ilə çıxış etmişdi - dünya şiələri birləşin! Bu şüar bu günədək İranın xarici siyasətinin göstəricilərindən biri kimi nəzərdən keçirilir. İran Azərbaycana təzyiq üçün hansı addımları ata bilər? Bu məsələ barədə bir qədər düşünmək lazım gəlir.

Tehran rejiminin Azərbaycanla bağlı ən əsas silahının bəzi İslam təmayüllü təşkilatları maliyyələşdirməsi olması sirr deyil, lakin bu qüvvələr yetərincə güclü deyillər və Azərbaycanda ictimai rəyə təsir imkanlarına malik deyillər. Buna baxmayaraq, İranın Azərbaycan dindarlarının bir qisminə təsir imkanları az deyil. Burada mötədil islamçıları da gözləmək yersiz görünür. Çox sadə bir həqiqətə görə - ac ölkədə yalnız siyasiləmiş və radikal islam meydana çıxa bilər. Bunun əsas amillərindən birinin də Azərbaycanda liberal ideologiyanın iflasa uğraması ilə bağlıdır.

Liberalizmlə bərabər Azərbaycanda Qərb dəyərləri də çökməyə başladı. Vurğulayaq ki, Qərb dairələri Azərbaycanda 2003-cü ildən etibarən məhv olmağa başladı. Bu əhval ruhiyyə ilə yanaşı, qərbyönümlü siyasi partiyaların da siyasi meydandan sıxışdırılması müşahidə edilməkdədir. Necə deyərlər, müqəddəs yer boş qalmır; bu dəfə də belə oldu. Qərbyönümlü siyasi qrupların iflası ilə yaranan boşluğu İslam təmayüllü mərkəzlər doldurmağa başladılar. Cəmiyyətdə İslam dəyərlərinin populyarlaşması siyasətə gəlmək arzusunda olan yeni müxalifətçilər qrupu üçün də başlıca amilə çevrildi.

Burada bir məqamı xatırlatmaq lazım gəlir. İran hərbi baxımdan Azərbaycandan xeyli güclüdür, bu ölkənin 13 milyon hərbiçisi var. Əhalisinin sayı, büdcəsi də Azərbaycanla "haqq-hesab çürütməyə" imkan verir. Bir anlığa təsəvvür edək ki, Azərbaycan Qərbin dəstəyi ilə İranla açıq qarşıdurmaya gedir, situasiya İranın hərbi müdaxiləsi ilə sonuclanır. Cənub bölgəsində "TMR"-ə bənzər "Cənub İslam Respublikası" qurulur. Bundan istifadə edən Rusiya şimal bölgəsindəki əhalini müdafiə etmək adı ilə bizim ərazilərə daxil olur, Ermənistan isə Qərb bölgəsinə qoşun yeridir. Bakı belə bir riskə gedə bilərmi? Ritorik sualdır. Odur ki, ehtimal edə bilərik ki, Bakı Tehranla münasibətlərini bərpa etməyə çalışacaq...

# G20-də iştirak Azərbaycana nə vəd edir...

## Aydın Mirzəzadə: "Bu, dünyanın aparıcı dövlətlərinə bir sıra məsələlərdə ölkəmizin mövqeyinin öyrənilməsinə və nəzərə alınmasına kömək edəcək"

**Noyabrın 15-16-da Türkiyənin Antalya şəhərində keçiriləcək G20 qrupunun Zirvə görüşündə iştirak etmək üçün üzv ölkələrdən 13 min nəfər, o cümlədən 3 min nəfər KİV nümayəndəsi qeydiyyatdan keçib. Yeri gəlmişkən, akkreditə olunan jurnalistlər arasında "Yeni Müsavat"ın əməkdaşı da var.**

Rəsmi məlumata görə, zirvə çərçivəsində 7 böyük toplantı keçiriləcək. Xatırladaq ki, Azərbaycan Türkiyənin G20-yə sədrliyi dövründə bu qurumun toplantılarında xüsusi dəvətli qonaq statusunda təmsil olunur. Antalyada keçiriləcək "G-20" ölkələri liderlərinin sammiti ilə əlaqədar geniş təhlükəsizlik tədbirləri həyata keçirir. Bu mühüm tədbirlə əlaqədar Antalyaya gəlməsi nəzərdə tutulan 13 min iştirakçının təhlükəsizliyinin təmin olunması üçün 12 min polis və jandarma cəlb edilib.

Antalya valisi Muammer Türker "G-20" zirvə görüşünün Türkiyə Respublikası üçün böyük əhəmiyyət daşıyan mötəbər tədbir olduğunu bildirib. O, sammitlə əlaqədar xüsusilə hava limanında yüksək səviyyədə təhlükəsizlik tədbirlərinin görüldüyünü vurğulayıb.

Xatırladaq ki, ABŞ prezidenti Barak Obama da G-20-nin zirvə toplantısında iştirak edəcək. Ağ ev rəhbərinin səfərinin noyabrın 14-də baş tutacağı gözlənilir.

Toplantıya İngiltərə, Rusiya, Yaponiya, Kanada, Almaniya, Fransa, İtaliya, Avstraliya, Braziliya, Argentina, Hindistan, Çin, İndoneziya, Səudiyyə Ərəbistanı, Cənubi Koreya, Avropa Birliyi Komissiya liderləri də qatılacaq. Almaniyanın kansleri Angela Merkel, Böyük Britaniyanın baş naziri Devid Kemeron, Fransa prezidenti Fransua Olland, Çin Xalq Respublikasının sədri Si Tszinpinun iştirakı təsdiqlənib.

Xatırladaq ki, bu, liderlərin sayca 10-cu toplantısıdır. Avstraliyadan ev sahibliyini təhvil alan Türkiyə gələn il üçün rəhbərliyi Çinə verəcək.

G20 ölkələrinin rəhbərlərinin Türkiyənin Antalya şəhərində keçiriləcək sammitinin gündəliyi açıqlanıb. Türkiyə XİN-dən bildirilib ki, G20-nin toplantısının ilk günündə liderlər terrorçuluğa qarşı mübarizəni, Suriyadakı vəziyyəti, bu ölkədən olan qaçqınların məsələsini müzakirə edəcəklər.Tədbir noyabrın 15-də yerli vaxtla saat 12-də Antalyanın Belek rayonunda başlayacaq. Zirvə toplantısının qonaqlarını ev sahibi olaraq Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan qarşılayacaq. Toplantılarası ikitərəfli görüşlərin keçiriləcəyi də istisna edilmir.

Noyabrın 16-da Rəcəb Tayyib Ərdoğan sammitin yekununa həsr edilən mətbuat konfransı keçirəcək. Toplantıda 5 çərçivə sazişinin də imzalanacağı gözlənilir. Sammitin sonunda "Antalya bəyannaməsi" qəbul ediləcək.

Qeyd edək ki, zirvə toplantısına ev sahibliyi edən dövlət bir qonaq ölkə liderini dəvət etmə haqqı var. Rəcəb Tayyib Ərdoğan da Azərbaycan prezidenti İlham Əliyevi



sammitə dəvət edib. Bu mühüm tədbirdə Azərbaycanın da iştirak etməsi mühüm hadisə kimi dəyərləndirilir. Xüsusilə də indiki həssas dönəmdə, Azərbaycanın Qərblə münasibətlərində konfrantasiyanın davam etməsi şəraitində Bakının G 20 zirvəsində iştirakı vacib sayılır. Üstəlik, Rusiya ilə Qərbin toqquşması fonunda Azərbaycan prezidentinin tədbirdə iştirakının nələr vəd etdiyi də cavabsız suallardandır.

**Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbər G20 zirvəsi ilə bağlı fikirlərini paylaşıb:** "Noyabrın 15-də Türkiyənin Antalya şəhərində G20 sammiti başlayacaq. Gerçək strateji müttəfiqimiz Türkiyə ev sahibi statusundan yararlanaraq dünyanın iqtisadi baxımdan ən qüdrətli ölkələrinin G20 adlı bu önəmli zirvəsinə Azərbaycanı dəvət edib. Bu sammitdə iştirak Azərbaycan üçün böyük bir fürsətdir. Azərbaycan hakimiyyəti bu önəmli toplantıya nə ilə getməlidir və nə ilə gedir".

**O bildirib ki, MSDM öz mülahizələrini cəmiyyətə təqdim etmək və fikir mübadiləsi aparmaq üçün bu mövzuda dəyirmi masa keçirəcək:** "Tədbir Müsavat Partiyasının qərargahında 12 noyabrda saat 15-də başlayacaq. Media nümayəndələri və maraqlananlar dəvətlidir. Sözü olanları gəlib çıxış etməyə, sözü (hələlik) olmayanları gəlib qulaq asmağa çağırıram".

**YAP-ın Siyasi Şurasının üzvü Aydın Mirzəzadə "Yeni Müsavat"a açıqlamasında Azərbaycanın tədbirdə yüksək səviyyədə təmsil olunacağını təsdiqlədi:** "İlk dəfə deyil ki, Azərbaycan "Böyük 20-lik"in sammitinə dəvət edilir. Bu, artıq Azərbaycanın beynəlxalq birlikdə nüfuzunun olduğu, onun siyasi və iqtisadi qüdrətinin dünya tərəfindən qəbul edilməsi deməkdir. Azərbaycanın orda iştirakı artıq dünyanın aparıcı dövlətlərinə bir sıra məsələlərdə ölkəmizin mövqeyinin öyrənilməsinə və nəzərə alınmasına kömək edəcək. Şübhəsiz ki, "Böyük 20-lik" dünya qarşısında duran problemlərin həlli müzakirəsini aparacaq. Bu, beynəlxalq terrorizmə qarşı mübarizə, radikallığın aradan qaldırılması, stabilliyin təmin edilməsi, maliyyə böhranından çıxmaq, qarşılıqlı etimadın güclənməsi və sairlə bağlıdır".

**A.Mirzəzadə qeyd etdi ki, bu məsələlərlə əlaqədar Azərbaycanın da mövqeyi ortada olacaq:** "Eyni zamanda Azərbaycan orda ərazi bütövlüyünün Ermənistan tərəfindən pozulması, Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazisində olması məsələlərini də şübhəsiz ki, qaldıracaq və beynəlxalq birlikdən, ilk növbədə ATƏT-in Minsk Qrupunun həmsədrləri olan üç böyük dövlətdən bu problemin həllinə daha ciddi yanaşmalarını tələb edəcək. Həmçinin bu gün Yaxın Şərqdə baş verən hadisələrin uzaqgedən nəticələrini də dünya birliyi qarşısında qoyacaq. Bu, təkcə Suriyanın, İraqın məsələsi deyil, ümumilikdə dünyanın təhlükəsizlik sisteminə qarşı çox ciddi bir təhdiddir. Böyük dövlətlər dövlətçilik təfəkkürü olmayan bir qrup banditin əlində qalıb, ona qarşı mübarizə məsələləri ortaya qoyulmalıdır. Həmçinin Avropa ilə dünyanın digər bölgələrinin münasibəti məsələsi də sözsüz ki, qaldırılacaq və burada Azərbaycanın deyəcək sözü var. Məsələn, Avropada müəyyən dairələr vaxtaşırı Azərbaycanın daxili işlərinə qarışmaq, onun seçki məsələlərini özünün maraqlarına uyğun qurmaq istəyindən əl çəkmirlər. Yəni bu, daxili işlərə qarışmaq, kimlərinsə özünü yeni, müstəqil dövlət üzərində prokuror, hakim statusunda aparmaqdır. Bu məsələlər gündəmə gələcək. Eyni zamanda şübhəsiz ki, gündəlikdə duran məsələlər üzərində də Azərbaycanın mövqeyi səslənəcək".

❑ E.PAŞASOY